# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Prezidentdən MÜHÜM SƏRƏNCAM - doktorantların və tələbələrin təqaüdləri artırıldı**



5

## BÖYÜK QAYIDIŞIN reallıqları: Qarabağ və Şərqi Zəngəzur dirçəlir!



2

Prezident İlham Əliyev: "Mən "Böyük Qayıdış"ın əvvəlində demişdim ki, biz bu bölgəni cənnətə çevirəcəyik, artıq cənnətin kiçik bir parçasıdır"

SƏS

№ 130 (7298)

25 iyul 2025-ci il.
Qiyməti 60 qəpik

# Avropa Ukraynaya ordu göndərir - böyük müharibə qapıdadır!



13

**Ağır və təhlükəli işlər: zəhmətin əvəzi necə ödənilir?**



14

**Dəniz zarafatı sevmir**



15

**Neçə övladımız olsun: bir, iki, üç, yoxsa...**



9

**Çimərliyə hansı qidaları aparmaq olmaz?**



16

**Yaşı 75-i ötən fransızlar istidən ölür...**



16

# BÖYÜK QAYIDIŞIN reallıqları: Qarabağ və Şərqi Zəngəzur dirçəlir!

## Prezident İlham Əliyev: "Mən "Böyük Qayıdış"ın əvvəlində demişdim ki, biz bu bölgəni cənnətə çevirəcəyik, artıq cənnətin kiçik bir parçasıdır"

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun torpaqlarımızı azad etməsi Zəfər tariximizi yazdı, həm də bu qələbə beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsi idi. BMT Təhlükəsizlik Şurasının on illərlə kağız üzərində qalmış qətnamələrini Azərbaycan icra etmiş oldu. İllərlə görülən işlər, həyata keçirilən tədbirlər artıq öz sözünü demişdir. 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter alması İkinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Dövlət başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevdən "Hücum!" əmrini alan Azərbaycan Ordusu qələbə əzmi ilə irəlilədi. 200 ildən çox davam edən etnik təmizləmə, soyqırımı siyasətini həyata keçirmiş, xalqımız tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş insanların qisası döyüş meydanında alındı. Hər gün müharibənin getdiyi ağır döyüşlərin nəticəsində qələbə soraqları alırdıq: işğaldan adad olunan kənd, qəsəbə və şəhərlər.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı və bu mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası idi. İmzalanmış üçtərəfli Bəyanatla ölkəmizin qazandığı tarixi Qələbə bir daha təsdiqini tapdı. Ermənistan məğlubiyyət sənədinə imza ataraq, qısa zaman kəsiyində digər şəhər və rayonlarımızdan çıxması barədə öhdəlik götürdü. Beləliklə, uzun illər işğal altında qalan Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan Azərbaycana təhvil verildi. Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu.

44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad olunması, münaqişənin bitməsi xalqımızın tarixinə qızıl hərflərlə Zəfərimizi yazdı. Xalqımızın Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməsi, həmrəyliyi, milli birliyi, vahid amal uğrunda birləşməsi nəticəsində 44 günlük Vətən müharibəsində 30 il ərzində silahlanmış, istehkamlar qurmuş düşmən üzərində Qələbəmizə nail olduq. Bu Qələbə xalqımızın əzmini, qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdi və sübut etdi ki, Azərbaycan xalqı qələbəni döyüş meydanında əldə etdi.

"Dəmir yumruğ"un gücünü görmüş ermənilər Azərbaycan ordusunun gücünə, Ali Baş Komandanın siyasi gücünə, iradəsinə yaxşı bələddirlər. Azərbaycan Ordusunun Qarabağda başladığı 2023-cü ilin 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Azərbaycan antiterror tədbirləri nəticəsində konstitusion quruluşunu bərpa etdi.

İndi artıq müharibədən beş ilə yaxın zaman ötür və Zəfər qazanmış Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru dirçəldir, həyat yenidən qaynayır.

### "BİZ BİRİNCİ DÖRD İLDƏ DAHA ÇOX İNFRASTRUKTUR LAYİHƏLƏRİ İLƏ MƏŞĞUL İDİK"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə Ona ünvanlanan sualları cavablandırarkən bildirdiyi kimi, "Hər şey göz önündədir - qayıdan insanların sayı getdikcə artır və bundan sonra daha sürətlə artacaq. Çünki biz birinci dörd ildə daha çox infrastruktur layihələri ilə məşğul idik. Onların əsas hissəsini demək olar ki, bitirmişik, bütün Qarabağ və Şərqi Zəngəzur dairəvi elektrik şəbəkə ilə artıq təmin edilib, Azərbaycanın ənənəvi elektrik təsərrüfatına da qoşulub. Burada artıq 280 meqavat gücündə su elektrik stansiyaları enerji istehsal edir və bu enerji Qarabağdan Azərbaycanın digər bölgələrinə gedir. Çünki bu gün Qarabağda o qədər adam yaşamır ki, bu qədər elektrik enerjisi lazım olsun".



Artıq Füzuli yolunda 7 tunel inşa edilib. Tunellərin ümumi uzunluğu 80 kilometrdir. Ən uzun tunel isə yaxın aylarda hazır olacaq. "Murov dağının altındakı tunelin uzunluğu, - təkcə bir tunelin uzunluğu, - 11 min 700 metrdir. Yəni bu, dünya miqyasında ən uzun tunellərdən biridir. Dəmir yolu çəkilib. İndi Ağdama qatarla rahat getmək mümkün olacaq. Ağdam-Xankəndi dəmir yolunun təməlini mən bu yaxınlarda qoymuşam. Xankəndi-Şuşa kanat yolunun da tikintisi yəqin ki, yaxın zamanlarda başlayacaq və çox mənzərəli bir vasitə olacaq. Eyni zamanda, bunun funksional tərəfi də çox önəmlidir - hər yerdə inşaat-quruculuq işləri, xəstəxanalar, evlər, yaşayış binaları", - deyə Azərbaycan Prezidenti bildirib.



### "XANKƏNDİDƏ QARABAĞ UNİVERSİTETİNDƏ 1500 TƏLƏBƏ OXUYUR, 300 MÜƏLLİM ONLARA DƏRS DEYİR"

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək və s. məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. I Dövlət Proqramına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirildi.

Prezident İlham Əliyevin "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncamına əsasən, Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradıldı. Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olub. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb.

Möhtərəm Prezidentimiz tərəfindən yaradılan Qarabağ Universiteti işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyətə başlayan ilk ali təhsil ocağımızdır. Bu universitet doğma Qarabağda tarixən mövcud olmuş ali təhsil ənənələrinin bərpasını həyata keçirir. Gənclərin mükəmməl təhsil alması, zəruri tədqiqat bacarıqlarına yiyələnməsi, onların müasir tələblərə cavab verən peşəkar mütəxəssis, Vətəninə, xalqına, dövlətinə sadiq vətəndaş kimi yetişmələri üçün universitetdə yaradılan imkanlar ürəkaçandır. Burada dünyanın qabaqcıl universitetlərinin müsbət təcrübəsi əsasında qurulan ən müasir ali təhsil modeli tətbiq olunur. "Xankəndidə Qarabağ Universitetində 1500 tələbə oxuyur, 300 müəllim onlara dərs deyir. Yəni, bütün bunlar bilirsiniz, necə deyim, bizə bir möcüzə kimi gəlir, o cümlədən mənə. Halbuki yəni, sirr deyil ki, bütün bu qərarların verilməsində mənim iştirakım olub. Amma qısa müddət ərzində bu qədər böyük işin görülməsi bu gün bir daha göstərir ki, bizim nə qədər istedadlı xalqımız var.

Mənə çatan məlumata görə, o cümlədən buraya səfər edən xarici nümayəndələr deyirlər ki, söhbət təkcə pulda, pul məsələsində deyil. İstəyir nə qədər pulun olsun, əgər insan kapitalı yoxdursa, əgər insanlar ürəklə işləmirlərsə, heç bir işi görmək mümkün deyil. Bir xüsusi əlaməti də diqqətinizə çatdırım, yəqin ki, siz də bunu yaxşı bilirsiniz. Burada işləyənlərin hamısı çox böyük həvəslə işləyir, - yəni, təbii ki, burada şirkətlər, dövlət qurumları işləyir, - burada işləmək insanlara xüsusi zövq verir", - deyə Azərbaycan Prezidenti bildirib.

### "ARTIQ KEÇMİŞ KÖÇKÜNLƏRİN YAŞADIQLARI YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN SAYI 18-Ə ÇATIB"

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərimiz dağıdılmış, tarixi dini mədəniyyət ocaqlarımız xarabazarlığa çevrilmişdir. İşğal altında yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalareyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib. Bu gün 30 ilə yaxın işğal altında olan torpaqlarımızda abadlıq-quruculuq işləri vüsət alıb.

Şərqi Zəngəzur və Qarabağa Böyük Qayıdış uğurla həyata keçirilir. Demək olar ki, əzəli torpaqlarımız hər gün bir köç karanını qarşılayır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin yenilməz qətiyyəti, yürütdüyü güclü daxili və xarici siyasəti, qəbul etdiyi qərarlar, sərgilədiyi diplomatik gedişlər Azərbaycan xalqının tarixinə Zəfər sözünü yazdı. O Zəfəri ki, illərlə öz doğma yurdundan didərgin düşmüş insanları yurd yerlərinə qovuşdurdu. Tarixi torpaqlarımıza sahib olduq. Dünyada qalib xalq kimi adımız hallandı. Münaqişənin sülh yolu ilə həll edilmədiyi halda, hərb yolu ilə torpaqlarımız işğaldan azad olundu. Bu tarixi ədalətimiz idi. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Artıq biz Qarabağa və Şərqi Zəngəzura qayıtmışıq. Daşlaşmış yaddaşda tariximiz var, keçmişimiz, mədəniyyətimiz var. Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, işğaldan azad olunan ərazilər yenidən dirçəlir və yeni bir inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub. "Biz infrastruktur layihələrinin əksəriyyətini başa çatdırandan sonra daha böyük vəsait yaşayış evlərinə istiqamətləndiriləcək", - deyə Prezident bildirib. Bu günlərdə bildiyimiz ki, Xocalı rayonunun iki kəndinə insanlar qayıdıb. Dövlət başçımızın qeyd etdiyi kimi, artıq keçmiş köçkünlərin yaşadıqları yaşayış məntəqələrinin sayı 18-ə çatıb: "Biz bu torpaqlar üçün o qədər darıxmışıq, o qədər bu torpaqların həsrətində olmuşuq ki, indi qayıtmışıq və necə deyərlər, bu torpaqlarımızdan doya bilmirik. Ona görə "Böyük Qayıdış" Proqramı artıq reallaşıb. Təbii ki, bunun mərhələləri olacaq və aydan-aya, ildən-ilə qayıdan vətəndaşların sayı çoxalacaq, Qarabağ, Şərqi Zəngəzur dirçələcək. Mən "Böyük Qayıdış"ın əvvəlində demişdim ki, biz bu bölgəni cənnətə çevirəcəyik, artıq cənnətin kiçik bir parçasıdır. Bunu burada öz gözlərimizlə görürük".

***Zümrüd BAYRAMOVA***

# Dialoqa davam, yoxsa tamam?



***İstanbulda Rusiya və Ukrayna nümayəndə heyətləri arasında danışıqların üçüncü raundu baş tutub. Əsas nəticə təkcə hərbçilərin deyil, həm də mülki şəxslərin mübadiləsi haqqında yeni saziş olub. Bundan əlavə, Moskva Kiyevə onlayn rejimdə işləyəcək üç qrup yaratmağı təklif edib: siyasi, humanitar və hərbi məsələlər üzrə. Ukrayna tərəfi iki ölkə liderlərinin tez bir zamanda - ən azı avqustun sonuna qədər görüşməkdə israr edib. Ancaq Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski tələsməməyi təklif edib: belə bir görüşdə müqaviləni müzakirə etmək yox, imzalamaq lazım olardı.***

İyulun 23-ü çərşənbə günü səhər saatlarında müxtəlif ölkələrdən jurnalistlər İstanbulun Çırağan sarayında toplaşmağa başlayıb. Amma xüsusilə qızmar günəş altında və 37 dərəcə istilik şəraitində uzun müddət gözləməli oldular. Günorta saatlarında Rusiya xəbər agentlikləri mənbələrə istinadən xəbər veriblər ki, Rusiya nümayəndə heyəti İstanbula uçub. Ukraynalı müzakirəçilər də Türkiyəyə gediblər. Düzdür, onlar əvvəlcə Ankaraya uçublar və orada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul olunublar. Ukrayna prezidenti Vladimir Zelenskinin ofisinin rəhbəri Andrey Yermakın sözlərinə görə, tərəflər Kiyev və Ankara arasında müdafiə sahəsində əməkdaşlığın perspektivlərini müzakirə edib, İstanbul görüşündən əvvəl mövqelərini razılaşdırıblar. Bundan əlavə, onlar Rusiya, Ukrayna, Türkiyə və ABŞ prezidentlərinin dördtərəfli sammitinin keçirilməsinin zəruriliyindən danışıblar - Andriy Yermakın qeyd etdiyi kimi, "müharibəyə son qoymaq üçün real danışıqlara keçmək". Ərdoğanın bu fikrə münasibəti barədə məlumatlar isə hələlik yoxdur.

Nəticədə rus və ukraynalı müzakirəçilər yalnız saat 19 radələrində Çırağan sarayında toplaşıblar. Vladimir Putinin köməkçisi Vladimir Medinskinin rəhbərlik etdiyi Rusiya nümayəndə heyətinin tərkibi ötən dəfədən dəyişməyib. Ukrayna nümayəndə heyəti bir qədər genişlənib, amma əsaslı deyil: ombudsmanın iki nümayəndəsi və Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı birləşib. Nümayəndə heyətinə keçmiş müdafiə naziri, bir müddət əvvəl Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi vəzifəsinə təyin edilmiş Rustem Umerov başçılıq edib.

TASS agentliyi ilkin olaraq mənbələrə istinadən xəbər verib ki, Vladimir Medinski və Rustem Umerov təkbətək görüş keçiriblər. Ukrayna mediası dərhal öz versiyasını verib: bu, Türkiyənin xarici işlər naziri Hakan Fidanın iştirakı ilə "üçlüyə qısa hazırlıq iclası" idi. İki nümayəndə heyətinin görüşü saat 20:30 radələrində başlamadı. Ənənəyə uyğun olaraq onu Hakan Fidan açıb. Ukrayna və Rusiyanın məhsuldar məsləhətləşmələr aparacağına ümid etdiyini bildirən Türkiyənin XİN rəhbəri Türkiyənin vasitəçi rolunu davam etdirəcəyini də əlavə edib. "Diplomatiya və dialoq sülhə nail olmaqda qarşıdurma və silahlardan daha effektivdir" deyib. Daha sonra görüş bağlı qapılar arxasında davam edib.

Bir gün əvvəl Kiyevdə danışıqların üç əsas mövzusu açıqlanıb: məhbusların qaytarılması, Rusiyaya aparılan uşaqların qaytarılması və liderlər səviyyəsində görüşə hazırlıq. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov, öz növbəsində, iyunun 2-də İstanbulda keçən raundda tərəflərin bir-birinə təhvil verdikləri münaqişənin həlli ilə bağlı iki memorandumu müzakirə etmək planlarını vurğulayıb. Xatırladaq ki, Rusiya sənədi Ukraynanın neytrallığını və onun ərazisində üçüncü ölkələrin hər hansı hərbi fəaliyyətinə qadağa qoyulmasını nəzərdə tutur.

Sənədin birinci bölməsində "yekun hesablaşmanın əsas parametrləri" yer alır. Atəşkəs şərtlərinə həsr olunmuş ikinci bölmə iki ssenaridən ibarətdir. Xüsusilə, şərtlərdən biri Kiyev tərəfindən "siyasi məhbuslar"a amnistiya verilməsi və həbsdə olan hərbçilərin və mülki şəxslərin azadlığa buraxılmasıdır. Üçüncü bölmə addımların ardıcıllığını və onların həyata keçirilməsi üçün vaxt çərçivəsini müəyyən edir. Xüsusilə Ukrayna uzunmüddətli sülh sazişi üzrə müzakirələr başlamazdan əvvəl tam atəşkəs tələb edir. Vladimir Zelenski iyulun 23-də Telegram kanalında yazmışdı ki, biz dərhal və tam atəşkəsin zəruriliyində israr edəcəyik.

Bazar ertəsi, iyulun 21-də Dmitri Peskov qeyd etmişdi ki, iki memorandumun - Rusiya və Ukraynanın - müddəaları "diametrik şəkildə zidd"dir, buna görə də kompromis əldə etmək üçün "çox diplomatik iş görülməlidir". Çərşənbə günü səhər isə o, jurnalistlərə açıq şəkildə bildirib ki, şişirdilmiş gözləntilərdən qaçmaq daha yaxşıdır: "Heç kim asan yol gözləmir. Bu, çox çətin söhbət olacaq". Vladimir Medinski İstanbulda jurnalistlərə danışıqlardan gözləntiləri barədə sual verərkən, "İşləyəcəyik, sonra görəcəyik" deyib. Sonda əsas danışıqlar 40 dəqiqəyə yaxın davam edib. Jurnalistlərin qarşısına çıxan Vladimir Medinski əvvəlcə İstanbul danışıqlarının ikinci raundu çərçivəsində bütün humanitar razılaşmaların yerinə yetirildiyinə diqqət çəkib. Xüsusilə, Moskva Ukrayna Silahlı Qüvvələrinin həlak olmuş 7000-dən çox hərbçisinin cəsədini Kiyevə qaytardı və az sayda öz cəsədini alıb. O əlavə edib ki, Rusiya Federasiyası yaralıların və həlak olanların toplanması üçün cəbhə xəttində qısa (24 və ya 48 saat) atəşkəs elan edilməsi məsələsinə bir daha baxmağı təklif edib. Görüşün mahiyyətcə nəticəsi hər tərəfdən ən azı 1200 nəfərin yeni məhbus mübadiləsinə dair razılıq əldə edilməsi olub. Eyni zamanda Vladimir Medinski bunun mülki şəxslərə də aid olduğunu vurğulayıb: Kursk vilayətindən olan 30-a yaxın insan Ukrayna ərazisində əsirlikdə qalır. Bundan əlavə, Moskva Ukraynaya onlayn rejimdə işləyəcək üç qrup yaratmağı təklif edib: siyasi, humanitar və hərbi məsələlər üzrə. Ukrayna tərəfi, Vladimir Medinskinin sözlərinə görə, bu təklifi nəzərdən keçirmək qərarına gəlib.

Rustem Umerov da öz növbəsində yeni humanitar mübadiləni təsdiqləyərək qeyd edib ki, Rusiya tərəfi üç ildən artıq əsirlikdə olan insanların, o cümlədən ağır yaralıların və gənclərin geri qaytarılmasına razılıq verib. Bundan əlavə, o, atəşkəs və liderlərin mümkün görüşü mövzularının da müzakirə olunduğunu bildirib. Kiyev onun avqustun sonuna qədər keçirilməsini təklif edib. Bu mövzunu şərh edən Vladimir Medinski qətiyyətlə bildirib: belə bir potensial görüşdə sazişi müzakirə etmək yox, onu imzalamaq lazımdır. Müqavilənin şərtlərini işləyib hazırlamaq isə birmənalı olaraq çox vaxt aparacaq.

Yada salaq ki, mayın 16-da və iyunun 2-də keçirilən görüşlərdə də əsirlərin və ölənlərin cəsədlərinin dəyişdirilməsi ilə bağlı qərarlar qəbul edilib, münaqişənin həlli ilə bağlı fundamental məsələlərdə nəzərəçarpacaq irəliləyiş olmayıb. Üçüncü İstanbul görüşünün nəticələri yəqin ki, gözlənilən maksimumdur. "Ümumiyyətlə, niyə görüşürlər?", deyə "The New York Times" iyulun 23-də soruşub. Və özü də buna cavab verib: "qismən prezident Trampa görə", o, "yanvarda inauqurasiyasından bəri hər iki tərəfi bir-biri ilə danışmağa məcbur etmək üçün təhdid və təşviqləri birləşdirdi". Nəticədə, The New York Times yazır ki, Trampın qəzəbinə düçar olacağından qorxaraq hər iki tərəf sülh prosesini açıq şəkildə tərk etməyə hazır deyil: "Ukrayna ABŞ-ın hərbi dəstəyini və Rusiyaya qarşı iqtisadi sanksiyalarını saxlamağa çalışır. Kreml ABŞ-ın istənilən yeni sanksiyalarını minimuma endirmək və Trampı Ukraynanı daha da ölümcül silahlarla təchiz etməkdən çəkindirmək istəyir". Görüşün nəticələrinə bu baxımdan baxsaq, hər iki tərəf çərşənbə günü üzərinə düşən vəzifələri yerinə yetirib.



## Ultimatum fonunda görüş

İstanbul görüşü ABŞ prezidenti Donald Trampın Rusiyadan hərbi əməliyyatları 50 gün ərzində dayandırmağı tələb edən ultimatum verməsindən sonra ardıcıl üçüncü və birinci idi. Həm Rusiya, həm də Ukrayna tərəfinin danışıqlardan əvvəl verdiyi bəyanatlara əsasən, Amerikanın təzyiqi müzakirə mövzusuna ümumiyyətlə təsir etməyib. Rusiya rəhbərliyi hələ də münaqişənin əsas səbəblərinin müzakirəsini birinci dərəcəli əhəmiyyət kəsb edir, Ukrayna rəhbərliyi isə Vladimir Zelenski ilə Vladimir Putin arasında görüş təşkil etməyi birinci dərəcəli əhəmiyyət kəsb edir.

Türkiyə şəhərindəki danışıqlardan əvvəl Vaşinqtonda mühüm bəyanat verilib. Dövlət Departamentinin sözçüsü Tammi Bryus aydınlıq gətirib ki, Rusiyanın Ukrayna ilə sülh bağlamalı olduğu təxminən 50 gün ərzində (və əgər Moskva sülh bağlamasa, Tramp Rusiyanın enerji resurslarının alıcılarına qarşı qadağanedici rüsumlar tətbiq edəcək) danışarkən ABŞ prezidenti razılığın konkret tarixə qədər əldə olunmasını nəzərdə tutmayıb. "Mən xəbərdarlıq edərdim ki, prezident bir müddət və ya zaman pəncərəsi müəyyən edəndə, bu, həmin müddət ərzində istənilən mərhələ ola bilər" deyib. Görünür, onun sözlərindən o anlama gəlmək lazımdır ki, Tramp Rusiyanın Ukrayna ilə danışıqlar aparmaq istəmədiyinə qərar verərsə, istənilən vaxt ikinci dərəcəli rüsumlar tətbiq etmək hüququnu özündə saxlayır. Bu xəbərdarlığın, daha doğrusu, təhdidlərin nə Moskvaya, nə də Kiyevə heç bir təsiri olmayıb. İstanbuldakı danışıqlardan əvvəl Zelenski, onun fikrincə, müzakirə edilməli olan üç prioritet məsələnin adını çəkib: hərbi əsirlərin mübadiləsi, "Rusiya tərəfindən oğurlanmış uşaqların geri qaytarılması" (əsasən Donbasdan olan, rus valideynləri tərəfindən övladlığa götürülən uşaqlar nəzərdə tutulur) və iki ölkə başçılarının görüşünün təşkili.

Ukrayna prezidenti nə risk qaldırıb, nə də dərhal sülh tələb edib. Öz növbəsində, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bildirib ki, danışıqların üçüncü raundunda "əsasən ikinci raundda mübadilə edilmiş memorandum layihələri ilə bağlı məsələlərin, eləcə də çox mühüm qarşılıqlı mübadilə prosesinin davam etdirilməsi ilə bağlı söhbətin" müzakirəsi planlaşdırılır. O, həmçinin qeyd edib ki, "lazım olduqda" "hər hansı digər məsələlər" qaldırılacaq. İyunun 2-də keçirilən danışıqlarda Ukrayna tərəfinə təqdim edilən Rusiya memorandum layihəsində Ukraynanın yerinə yetirməli olduğu bir çox məqamları xatırladırıq. Bunlara Ukrayna qoşunlarının Donbass, Zaporojya və Xerson vilayətlərindən çıxarılması, səfərbərliyin və xarici hərbi yardımın dayandırılması, Ali Radanın prezidenti və deputatlarının yenidən seçilməsi. Moskvanın müharibənin əsas səbəbləri adlandırdığı şeylərin aradan qaldırılmasına yönələn tədbirlər də var: Ukraynanın NATO-ya üzv olmaqdan imtinası, onun qeyri-nüvə statusu, maksimum sayda Ukrayna silahlı qüvvələrinin yaradılması, Moskva Patriarxlığının Ukrayna Pravoslav Kilsəsinin fəaliyyətinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması və Kiyevin qəbuledilməz hesab etdiyi daha çox şey. Hələ iyun ayında, danışıqların ikinci raundundan sonra Zelenski Rusiya memorandumunu "ultimatum" və "heç kəsin ciddi qəbul etməyəcəyi" "anlaşılmazlıq" adlandırmışdı. Ukrayna prezidenti hesab edir ki, əsas məsələ iki dövlət liderlərinin görüşündə həll olunmalıdır. Bu arada, üçüncü raund başlamazdan əvvəl Peskov vurğulayıb ki, memorandumların müzakirəsi ilə sammit görüşünün hazırlanmasını müqayisə etmək mümkün deyil. Memorandumların razılaşdırılması üçün görülməli olan bütün işlər görüşə hazırlıqdır.

Onu da qeyd edək ki, Moskva nümayəndə heyətinin tərkibində dəyişiklik etməyib. İyun ayında olduğu kimi, ona Rusiya Federasiyası Prezidentinin müşaviri Vladimir Medinski rəhbərlik edir. Ukrayna prezidentinin fikrincə, Rusiya nümayəndə heyətinə kifayət qədər yüksək rütbəli olmayan bir məmurun rəhbərlik etməsi ilə bağlı Zelenskinin narazılığına məhəl qoyulmaması qərara alınıb. Bununla belə, Ukrayna nümayəndə heyətinin rəhbəri dəyişməyib. Hələ də həmin Rüstəm Umerovdur. Yalnız onun mövqeyi dəyişib. İyulun 18-dən o, müdafiə naziri deyil, Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibidir. Məsələ imzalanan zaman danışıqlar hələ yekunlaşmayıb.

**V.VƏLİYEV**

# Estoniya nəşri: Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda fikirləri dünya liderlərinin marağına səbəb olub

Estoniyanın "Business-M" nəşri Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşərkən jurnalistlərin suallarına cavabına dair geniş məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, "Şuşa Forumu: Rəqəmsal çağırışlar və qlobal dialoq" sərlövhəli məqalədə Azərbaycanın dövlət başçısının fikirlərinə geniş yer verilib. Məqalədə qeyd olunur ki, "Euronews"un Yaxın Şərq bürosunun rəhbəri xanım Ceyn Viterspunun moderatorluğu ilə keçirilən Forumda 52 ölkədən 140 qonaq, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələri iştirak ediblər.

"Mən bütün qonaqlarımızı Qarabağda salamlamaq istəyirəm. Çox sağ olun ki, bizimləsiniz. Üçüncü dəfədir ki, belə bir mühüm tədbir Qarabağda keçirilir. Şuşa Media Forumu artıq ənənəvi xarakter alıb. Ümid edirəm ki, bu ənənə davam edəcək və vaxt keçdikcə qonaqların sayı artır, coğrafi əhatə daha da genişlənir. Bütün bunlar bir daha göstərir ki, ən mühüm mövzuların mehriban şəraitdə açıq müzakirələrinə böyük ehtiyac var. Söhbət təkcə mediadan deyil, həmçinin qlobal gündəlikdən gedir. Dünyada vəziyyət sürətlə dəyişir. Əgər ötən il Şuşada keçirilmiş Forumdan başlasaq görərik ki, nə qədər çox dəyişikliklər baş verib.

Əlbəttə ki, ilk növbədə, mətbuat belə tədbirlərə qatılır, bütün hekayələri söyləyir, bu dəyişiklikləri, hadisələri təsvir edir və öz cavabını, rəyini bildirir. Bir sözlə, çox məmnunam ki, biz burada - Xankəndidə bu cür böyük tədbirə toplaşmışıq. Bugünkü görüşü burada, yeni tikilmiş Konqres Mərkəzində, Xankəndinin Zəfər meydanında keçirmək qərarına gəldik. Beləliklə, əminəm ki, bura qonaqlar üçün maraqlı olacaq, yenidənqurma, eləcə də 30 ildən artıq bu yerlərdən didərgin düşmüş insanların qayıtması baxımından ərazilər azad olunandan sonra görülmüş işlərə baxmaq cəlbedici olacaq. Bununla şərhimi yekunlaşdırıram ki, müzakirə üçün daha çox vaxt qalsın. Bir daha bizimlə olduğunuz üçün təşəkkür edirəm", - deyə məqalədə Prezident İlham Əliyevin giriş nitqi əlavə edilib.


BUSINESS-M



БИЗНЕС ПОТРЕБИТЕЛЬ СТИЛЬ ЖИЗНИ МЕРОПРИЯТИЯ ГОРОД EESTI РЕДАКЦИЯ

Главная > Мероприятия > События > Шушинский форум: Цифровые вызовы и глобальный диалог

События

Шушинский форум: Цифровые вызовы и глобальный диалог

21.07.2025



19 июля в Ханкенди прошла встреча Президента Алиева с участниками медиафорума.

В культурном сердце Азербайджана состоялась встреча Президента Азербайджанской Республики Ильхама Алиева с участниками III Шушинского Глобального медиафорума на тему «Цифровые переходы: укрепление информационной и медиаустойчивости в эпоху искусственного интеллекта».

Модератором выступила руководитель Ближневосточного бюро Евроньюс Джейн Уизерспун. Было отмечено, что в форуме принимают участие около 140 иностранных гостей из 52 стран, включая представителей более 30 информационных агентств, 7 международных организаций, около 80 медиаструктур, а также других профильных учреждений. В числе участников – как зарубежные медиаэксперты, так и представители азербайджанских СМИ, аналитики и официальные лица.

Реклама



Məqalədə, həmçinin Ukraynanın nüfuzlu jurnalisti Dmitro Qordonun sualı və dövlətimizin başçısının cavabı barədə də fikirlər yer alıb. Qeyd olunur ki, Qordonun "Siz qalib xalqın Lideri kimi Ukraynaya və ukraynalılara hansı tövsiyələri verə bilərsiniz?" sualına cavabında Prezident İlham Əliyev "Heç vaxt işğalla barışmamaq lazımdır" deyə bildirib.

Məqalədə daha sonra yazılır: "Prezident Əliyevin III Forumun iştirakçıları ilə görüşündə səsləndirdiyi bəyanatlar beynəlxalq mətbuatda geniş müzakirə obyektinə çevrildi - aparıcı media subyektlərinin manşetlərində yayılaraq, dövlətin siyasətini əks etdirməklə yanaşı, Azərbaycanın səsinin daha inamlı və daha ciddi səsləndiyi qlobal gündəmdə yeni vurğular formalaşdırdı. Bu günlərdə dünya mediasının diqqəti danışmağı, eşidilməyi bilən dövlətə, onun güclü liderinə yönəlib. Forumun qlobal media məkanının diqqət mərkəzində olmasını həm nüfuzlu media qurumlarında işıqlandırılma, həm də sosial şəbəkələrdə fəal iştirak sübut edir. Beləliklə, " #Azerbaijan ", " #ShushaGlobalMediaForum " və " #IlhamAliyev " həştəqləri qısa zamanda trendə çevrilərək Şuşa Forumuna artan beynəlxalq marağın və Azərbaycan dövlət başçısının bəyanatlarının virtual əksinə çevrildi".

Estoniya nəşri daha sonra yazır ki, Prezident İlham Əliyevin bəyanatları siyasi liderlərin marağına da səbəb oldu. ABŞ Prezidenti Donald Tramp "Truth Social" səhifəsində Azərbaycan dövlət başçısının ABŞ-la münasibətlər mövzusunda çıxışından fraqment paylaşıb. Prezident İlham Əliyev ABŞ və Azərbaycan arasında tərəfdaşlıq, eləcə də Trampın həm qlobal, həm də regionda sülh gündəminə sadiqliyinə dair bəyanatlarını əks etdirən videoçarxı paylaşdığına görə Prezident Trampa minnətdarlığını bildirib.



## Azərbaycan və Özbəkistan prezidentləri arasında telefon danışığı olub

**İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib. Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edib, ona cansağlığı və fəaliyyətində yeni uğurlar arzulayıb.**

Özbəkistan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Azərbaycan və Özbəkistan prezidentləri yüksəksəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafında roluna toxunublar. Bu xüsusda iyulun əvvəlində Şavkat Mirziyoyevin ölkəmizə dövlət səfəri çərçivəsində aparılmış səmərəli müzakirələr və imzalanmış sənədlər, həmçinin Özbəkistan Prezidentinin İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilən Zirvə toplantısında iştirakı qeyd edilib.

Dövlət başçıları Azərbaycanla Özbəkistan arasında qardaşlıq, dostluq və müttəfiqlik əlaqələrinin gələcəkdə də bütün sahələrdə uğurlu inkişafına əminliklərini bildirib, ikitərəfli gündəliklə bağlı əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

# "Azərbaycan beynəlxalq aləmdə səmərəli siyasət həyata keçirir"

İyulun 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Somalinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisalam Abdi Ali ilə görüşüb. Xarici İşlər Nazirliyinin rəsmi açıqlamasında deyilir ki, nazirlər arasında baş tutan təkbətək görüş daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Görüşdə Azərbaycan ilə Somali arasında ikitərəfli əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq gündəmdə duran məsələlər müzakirə olunub. Son bir neçə il ərzində ölkələrimiz arasında təmasların intensivləşməsi, qarşılıqlı səfərlərin sayının artmasının məmnunluq doğurduğu qeyd edilib.




Ceyhun Bayramov Azərbaycan və Somali arasında əməkdaşlığın siyasi, iqtisadi, humanitar və digər sahələrdə daha da dərinləşdirilməsi üçün mövcud potensialdan istifadə olunmasının vacibliyini vurğulayıb. Kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, yaşıl enerji, humanitar və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğu bildirilib. Somali nümayəndə heyətinin ADEX sərgisində iştirakı xatırlanıb, müdafiə sənayesi sahəsində geniş əməkdaşlıq perspektivlərinin mövcudluğu qeyd edilib.

Həmçinin bu ilin fevral ayında Azərbaycan hökumət missiyasının Somaliyə səfəri, bu çərçivədə Xarici İşlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələrin keçirilməsinin iki ölkə arasında əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinə və yeni təşəbbüslərin formalaşdırılmasına zəmin yaratdığı qeyd olunub.

Görüşdə Azərbaycan və Somali arasında ikitərəfli çərçivədəki münasibətlərlə yanaşı, çoxtərəfli beynəlxalq və regional platformalarda, xüsusilə Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın önəmi vurğulanıb. Bu xüsusda, Somalinin 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü dövründə əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib və gələcəkdə də qarşılıqlı dəstəyə əsaslanan münasibətlərin davam etdiriləcəyinə əminlik ifadə olunub. Ölkəmizin 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə ev sahibliyi və Təşkilata sədrliyi dönəmində ölkələrimiz arasında geniş əməkdaşlıq perspektivlərinin olduğu qeyd edilib. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Sonra nazirlər birgə mətbuat konfransında çıxış ediblər.

"Ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının yaradılması kimi əhəmiyyətli işlər görüb. Azərbaycan beynəlxalq aləmdə səmərəli siyasət həyata keçirir."

Bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov iyulun 24-də Somalinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisalam Abdi Ali ilə keçirdiyi birgə mətbuat konfransı zamanı söyləyib. O bildirib ki, Somalinin 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü müddətində beynəlxalq sülh və təhlükəsizlik səylərini dəstəkləyirik. Bu da əməkdaşlığımızın tərkib hissəsidir.

"Dost Somali ilə əlaqələrin intensiv şəkildə inkişaf etdirilməsindən məmnunuq. Uzun illərdir beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan ilə Somali arasında qarşılıqlı maraqların təmin edilməsi istiqamətində müsbət əlaqələrimiz var." Nazir bildirib ki, Somali ilə BMT, Qoşulmama Hərəkatı və İƏT-də əməkdaşlıq həyata keçiririk. Bu və son vaxtlar yüksəksəviyyəli səfərlər, həmçinin imzalanmış sazişlər ölkələrimiz arasında tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyini göstərir.

# Prezidentdən MÜHÜM SƏRƏNCAM - doktorantların və tələbələrin təqaüdləri artırıldı

Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin mərkəzində ölkə vətəndaşı, onun rifahının təminatı prinsipi dayanır və bunun nəticəsi olaraq ötən 22 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Azərbaycan vətəndaşının maraqlarının, həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsi əsas hədəflərdən biri olaraq qarşıya qoyulmuşdur. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir. Həyata keçirilən tədbirlərin, islahatların davamı olaraq Prezident İlham Əliyev doktorantlar, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması barədə Sərəncam imzalayıb. Sənədə əsasən, dövlət büdcəsinin vəsaiti hesabına verilən təqaüdlərin məbləği 2025-ci il sentyabrın 1-dən etibarən artırılacaq. Belə ki, doktorantura səviyyəsində təhsil alanlar üçün elmlər doktoru hazırlığı üzrə təqaüdün məbləği 450 manat (əvvəl 400 manat), fəlsəfə doktoru hazırlığı üzrə isə 300 manat (əvvəl 240 manat) müəyyən edilib. Ali təhsil müəssisələrinin magistratura səviyyəsində təhsil alan tələbələrdən akademik göstəriciləri 91-100 bal arası olanlara 240 manat, 71-90 bal arası olanlara 180 manat, 51-70 bal arası olanlara isə 120 manat təqaüd veriləcək. Bakalavriat səviyyəsində (o cümlədən əsas (baza ali) tibb təhsili) təhsil alan tələbələr üçün bu məbləğlər müvafiq olaraq 91-100 bal üçün 200 manat, 71-90 bal üçün 160 manat, 51-70 bal üçün isə 110 manat olacaq. Orta ixtisas təhsili müəssisələrində oxuyan tələbələrdən 91-100 bal toplayanlara 110 manat, 71-90 bal arası nəticə göstərənlərə 90 manat, 51-70 bal arası olanlara isə 70 manat məbləğində təqaüd ayrılacaq. Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsində qiyməti "5" (91-100 bal) olan tələbələrə 110 manat, qiymətləri "4" və "5" (71-100 bal) olanlara 90 manat, qiymətləri "3"-"5" (51-100 bal) olanlara isə 70 manat təqaüd ödəniləcək. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilib. Bununla əlaqədar Prezident İlham Əliyev yeni Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləği 2025-ci il sentyabrın 1-dən 350 (üç yüz əlli) manat müəyyən edilib. Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## "AZƏRBAYCANDA SABİTLİYİN TƏMİNATÇISI AZƏRBAYCAN XALQIDIR"

Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Son 22 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmışdır.



Bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklər baş verir. Təbii ki, uğurlu islahatların aparılması ölkəmizdə sabitliyin mövcudluğundan qaynaqlanır. Ölkəmiz dünyada belə sabitlik adası kimi tanınıb. Dövlət başçısı çıxışlarında vurğuladığı kimi, Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır: "Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Sabitlik pozulanda ölkələrdə böhran, xaotik proseslər baş verir, ölkələr böyük zərər görürlər". Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur.

Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını yüksəldir. Vətəndaş rifahının təminatı, sosial müdafiə sisteminin gücləndirilməsi Prezident İlham Əliyevin uğurlu siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimizin başçısının Fərman və Sərəncamları ilə 2018-2025-ci illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 5 sosial islahat paketi icra olunub və bu islahatlar üzrə ayrılan illik əlavə vəsait 7,6 mlrd. manat təşkil edir.

Ölkə Prezidentinin 23 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin əvvəlindən icra olunan sosial islahat paketi çərçivəsində əməkhaqqı və pensiyalarda edilmiş artımlar görülən işlərin davamıdır. 23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırıldı. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. Həqiqətən də, bu sosial addımlar əhali tərəfindən böyük məmnunluqla qarşılanır. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır.




## UĞURLU SOSİAL İSLAHATLAR PAKETİ

"Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin məlum Fərmanı sosial sahədə görülən işlərin davamı kimi səciyyələnir. Fərmana əsasən, bu il iyulun 1-dən şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü 600 manatdan 700 manata, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 500 manatdan 600 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manatdan 500 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manatdan 400 manata çatdırıldı.

Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdünün 2000 manatdan 2200 manata, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdünün 1800 manatdan 2000 manata, Prezidentin fərdi təqaüdünün 1500 manatdan 1700 manata, uşağın anadan olmasına görə və dəfn üçün birdəfəlik müavinətlərin 500 manatdan 600 manata çatdırılması təmin edilir. Himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinət 0-6 yaş arası uşaq üçün 395 manatdan 500 manata, 7-13 yaş arası uşaq üçün 415 manatdan 600 manata, 14-18 yaş arası uşaq üçün 435 manatdan 650 manata, əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 270 manatdan 300 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 220 manatdan 250 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 150 manatdan 180 manata çatdırıldı. Yeni Fərmanda həmçinin ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün 300 manatdan 350 manata, ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdünün 200 manatdan 250 manata çatdırılmış oldu. Eyni zamanda övladlığa götürülən hər uşağa görə aylıq müavinət 200 manatdan 240 manata, ailə başçısını itirməyə görə aylıq müavinət (hər ailə üzvü üçün) 120 manatdan 140 manata, bir yaşınadək uşağı olan aztəminatlı (ünvanlı yardım alan) ailələrə aylıq müavinət (hər uşağa görə) 100 manatdan 140 manata, beşdən çox uşağı olan qadınlara aylıq müavinət (hər uşağa görə) 105 manatdan 140 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət (hər uşağa görə) 120 manatdan 140 manata, valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət 120 manatdan 140 manata çatdırıldı.

Ümumilikdə, bu ilin əvvəlindən icrasına başlanılan sosial islahat paketi 3 milyon insanı əhatə edir və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb.

Ölkəmizdə son 22 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Dövlət tərəfindən həyata keçirilən sosialyönlü tədbirlər nəticəsində, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbat və ehtiyacları yüksək səviyyədə ödənilib. Sosial sahə istiqamətindəki sərəncam və fərmanlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir. Pensiyaçıların, təqaüdçülərin, əlillərin, şəhid ailələrinin və digər sosial kateqoriyaların sosial müdafiəsi ilə bağlı çoxlu sayda hüquqi aktların qüvvəyə minməsi bu sahədə ciddi dəyişikliyə səbəb olmuş oldu.

Göründüyü kimi, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı ölkədə sosial tərəqqi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasını təmin edib və bu uğurlar qarşıdakı dövrdə də davam edəcək.

***Zümrüd BAYRAMOVA***

# "Həmkarlar"ın putyovka alveri: İşçilərin hüquqlarını kimlər və necə pozur?

**Ekspert:** "Həmkarlar ittifaqları turizm şirkətlərindən fərqlənmir və yalnız putyovka alveri ilə məşğuldur. Milyonlarla insan əməkhaqqından pul ödəyir, amma onların istirahət hüququ təmin olunmur"

***Həmkarlar təşkilatlarından şikayətlər və narazılıqlar artır. Xüsusən də, sanatoriyalara və istirahət mərkəzlərinə göndərişlərin verilməsi məsələsində şəffaflıq və ədalətlilik prinsipinin pozulması ilə bağlı şikayətlər daha çoxdur.***

Ümumiyyətlə, həmkarlar təşkilatları işçilərin əmək hüquqları, iş şəraiti və sair bu kimi hüquqlarını qorumalı olan bir struktur olmasına baxmayaraq ölkəmizdə bu sahədə olan problemlərin həllində bu təşkilatların ciddi təsiri yoxdur.







Sovet dövründə Azərbaycanda Həmkarlar İttifaqı deyildikdə, hamının gözünün qabağına işçilərin əmək və istirahət hüquqlarını, həmçinin digər sosial hüquqlarını qoruyan nəhəng təşkilat gəlirdi. Lakin sonrakı dövrdə bu təşkilat faktiki olaraq nüfuzunu və imkanlarını itirdi və insanların yaddaşında ancaq rüşvət verərək putyovka almaq imkanı olan bir təşkilat kimi yer tutdu. Hazırda bu təşkilatların əsas işi də elə budur- sanatoriyalara putyovka vermək- lakin onu da şəffaf və ədalətli etmirlər. Bununla bağlı xeyli narazılıqlar və şikayətlər edilir.

Hazırda AHİK 16 mindən artıq həmkarlar ittifaqı təşkilatını və 1,2 milyona yaxın həmkarlar ittifaqı üzvünü əhatə edir. Həmkarlar ittifaqlarının balansında Azərbaycanın şəfalı guşələrində onlarla istirahət mərkəzləri, sanatoriya-kurort müəssisələri, sağlamlıq düşərgələri fəaliyyət göstərir. Bu mərkəzlərdə hər il on minlərlə insan "göndəriş vərəqəsi" (putyovka) alaraq istirahət edirlər. Şəfalı yerlərdə istirahətə və müalicəyə ehtiyac yüksək olduğundan həmin "göndəriş vərəqəsi"nə tələb də böyük olur. Buna görə də uzun müddət əmək fəaliyyəti ilə məşğul olan şəxslər putyovka ala bilmədiyi halda ayrı-ayrı insanlar, "haqqını" ödəməklə, asanlıqla putyovka alıb istirahət və müalicə mərkəzilərinin xidmətlərindən yararlanırlar.

Dövlət orqanlarında, özəl şirkətlərdə və digər təşkilatlarda işləyənlərin aylıq əməkhaqqından tutulan üzvlük pulları hesabına həmkarlar təşkilatına milyonlarla vəsait daxil olur. Bu vəsaitlərlə bəzi üzvlərə putyovkalar verilir. Lakin uzun illərdir ki, əməkhaqqından həmkarlar təşkilatına vəsait ödəyib, putyovka almayanlar da var. Şikayətçilər deyirlər ki, həmkarlar təşkilatı rəhbərləri putyovkaları öz yaxınlarına verir və ya satır, ən yaxşı istirahət yerlərinə rəhbər şəxslərin özləri və yaxud yaxınları göndərilir.

Putyovkaların qiymətləri də süni olaraq şişirdilmiş olur. Belə sanatoriyalarda istirahətin bir günü ən azı 150 manata "oformut" olunur ki, bu da şox yüksək qiymətdir. 10 günə vuranda bu 1500, 15 günə hesablayanda 2200 manatdan çox vəsait edir. Nəticədə putyovkanı alan şəxsin ödənişi də artıq olur, belə ki, o bu məbləğin 15 faizini ödəməlidir. Putyovka qiyməti nə qədər yüksək olarsa, işçinin ödənişi də yüksək olur. Bu qiymətlər bazar qiymətləri ilə eynidir. Həmin işçi bu qiymətə elə istənilən istirahət mərkəzində istirahət edə və ya müalicə ala bilər. daha onda niyə illərlə bundan artıq vəsaiti həmkarlar təşkilatlarına ödəyib minnətlə gedir ki?

Bundan başqa, putyovkaların qiymətinin hədsiz yüksək olması onların sayını da azaldır. AHİK sədri bir müddət əvvəl açıqlamasında bildirib ki, 10-15 il bundan əvvəl Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ayrılan vəsait hesabına 35 min insanı sanatoriyalara getmək üçün putyovkalarla təmin etmək mümkün idi, amma hazırda ayrılan həmin vəsait hesabına yalnız 12 min insana putyovka verə bilirik. Deməli, bahalaşma nəticəsində putyovka sayı 3 dəfə azalıb. Bu isə tələbatın yüksək olduğu bir şəraitdə çox ciddi problem yaradır.

Konfederasiya rəhbərliyi onlara ayrılan vəsaitin artırılmasını istəyir. Ancaq bu artırılma işçilərin maaşından tutulmaları artıracaq və bu şəxslərin bir çoxu da heç vaxt həmkarlardan puyovka ala bilmir. Bu halda niyə hər ay üzvlük haqqı ödəməlidir ki?

Əmək Məcəlləsinin 26-cı maddəsinə əsasən, Həmkarlar İttifaqına üzvlük könüllüdür. Amma işəgötürənlər bunu heç vaxt işçiyə bildirmirlər. İşçinin əməkhaqqından 2 faizi tutularaq həmkarların hesabına ödənilir. İşçi elə bilir ki, bu, qanunun tələbidir. Qanunda isə belə bir tələb yoxdur. İşçi ərizə yazıb bu ödənişdən imtina edə bilər. Amma belə bir hüququnun olduğunu heç kim işçiyə izah etmir.

Müstəqil Həmkarlar Birliyinin sədr müavini Əhməd Rəhmanov deyir ki, Azərbaycanda həmkarlar ittifaqları turizm şirkətlərindən fərqlənmir və yalnız putyovka alveri ilə məşğuldur: Burada da ədalətlilik və şəffaflıq yoxdur. Milyonlarla insan həmkarlar ittifaqlarına əməkhaqqından pul ödəyir, amma onların istirahət hüququ təmin olunmur. İşçi əmək hüquqları pozulanda Həmkarlar İttifaqına müraciət edir, onlar isə deyir ki, biz ancaq putyovka işinə baxırıq. Halbuki, bu ittifaqların vəzifəsi təkcə putyovka vermək deyil, əsas işi işçilərin əmək və sosial hüquqlarını qorumaqdır". Ekspert deyir ki, Əmək Müfəttişliyi adlı dövlət orqanı isə formal olaraq mövcuddur və işçilərin əmək hüquqlarını qorumur: "Bu yaxınlarda Əmək Müfəttişliyi açıqlama verdi ki, 43 nəfərin işə bərpa olunması hüquqlarını təmin edib, amma biz sorğu verəndə ki onların adlarını çəkə bilərsinizmi, heç bir ad çəkə bilmirlər".

Əhməd Rəhmanov bildirib ki, Sovet dövründə bütün işçilər növbə ilə istirahət mərkəzlərinə və müalicə sanatoriyalarına növbə ilə putyovkalar alırdılar özü də azı 3 həftəlik, indi isə, çox az adama verilir və həm də 1, maksimum 2 həftəlik. O, hesab edir ki, işçilər əməkhaqqından həmkarlara pul ödəyirsə oz haqlarını tələb etməli və almalıdırlar. Bu təmin olunmayanda isə kollektiv şəkildə etiraz etməli və yuxarı orqanlara şikayət etməlidirlər.

Burada bir haşiyə çıxaq ki, Səs Media Qrupun kollektivi də Həmkarlar İttifaqının üzvüdür və uzun illərdir ki, əməkhaqqımızdan hər ay bu məqsədlə vəsait tutulur. Lakin, hələ də redaksiya işçilərindən kiməsə putyovka verilməsinə şahid olmamışıq. 10-15-20 il əzrində həmkarlara ödəniş edib biorcə dəfə də putyovka ala bilmirsə, deməli, burada aşkar qanunsuzluq, ədalətsizlik və rüşvətxorluq faktı var. Bununla bağlı ayrıca detallı araşdırmamız olacaq və hər şey faktlarla ortaya qoyulacaq.

Qeyd edək ki, indiyədək bəzi vətəndaşlar istirahət və müalicə üçün iş yerlərindəki müvafiq həmkarlar təşkilatına müraciət edərək putyovka ala bilirdilər. Bu ildən isə bu qayda ləğv olunub. Belə ki, bu ilin aprelində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən qəbul olunan qərara görə, artıq bir müddətdir "göndəriş vərəqəsi"nin verilməsi prosesinin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsinə başlanılıb. Belə ki, vətəndaşlar telefonla və ya birbaşa "Kurort" Turizm İnformasiya Mərkəzinə müraciətlər edirlər. Müraciət zamanı vətəndaşın şəxsiyyət vəsiqəsi məlumatları, sosial statusuna dair məlumatlar, iş yeri, getmək istədiyi sanatoriya və tarix barədə məlumatlar reyestr bazasına daxil edilir.

Vətəndaşlar göndərişlərin verilməsi qaydasına əsasən, imtiyazlı və ya 15% dəyərini ödəməklə "göndəriş vərəqəsi" ilə təmin edilməlidir.

Xatırladaq ki, Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli və 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarlarına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sanatoriya-kurort yollayışları ilə təmin edilməsi üçün aşağıda qeyd olunan şəxslər imtiyazlı şəxslər hesab edilirlər:

İşləməyən əlilliyi olan şəxslər;

-18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar;

-II Dünya Müharibəsinin iştirakçıları;

-Şəhid ailəsi statusu almış ailənin üzvü olan işləməyən şəxslər;

-Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsində iştirak etmiş işləməyən vətəndaşlar;

-Qəyyumun (himayəçinin) ailəsində, dövlət və qeyri-dövlət müəssisələrində təlim-tərbiyə olunan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;

-Fövqəladə hallarda insanların xilas edilməsində və tibb yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlar.

"Göndəriş vərəqəsi"nin əldə edilməsi məqsədilə imtiyazlı şəxslər yaşayış yeri üzrə Sosial Xidmətlər Agentliyinin struktur bölməsinə, "DOST" mərkəzlərinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə" müraciət edirlər.

Bundan əlavə, şəhid ailələri, əlillik statusu olanlar, 1-ci qrup əlilləri müşayiət edən şəxslər, müharibə iştirakçıları ödənişsiz olaraq "göndəriş vərəqəsi" ilə təmin edilirlər.

Qanuni olaraq kağız üzərində hər şey gözəl görünür. Amma reallıqda belə deyil və çoxlu problemlər var.

Ümumiyyətlə, həmkarlar ittifaqının fəaliyyətində xeyli problemlər var. Putyovka məsələsi onlardan yalnız biridir. İşçilərin əmək hüquqlarının qorunması məsələsində ittifaq heç formal da fəaliyyət göstərmir, eləcə də digər sahələrdə. Yalnız putyovka biznesi ilə məşğul olurlar ki, burada da çoxlu qanunsuzluq faktları və şikayət hallarının olması haqda media və sosial şəbəkələrdə xeyli materiallar yayımlanır. Bu səbəbdən Azərbaycanda Həmkarlar Təşkilatları Konfederasiyası buraxılmalı, yenidən sağlam əsasda həmkarlar təşkilatları qurulmalıdır- həm işçiıərin özləri tərəfindən və yalnız özləri tərəfinfən seçilmiş rəhbərlər təyin edilərək. Bu təşkilatlar böyük bir federasiyada birləşməli, ölkənin bütün işçilərinin əmək, istirahət və digər hüquqlarının qorunmasını təmin etməlidir.

***Elçin Bayramlı***

ARAŞDIRMA

# ŞƏT-də fikir ayrılığı



## Rusiya üçün yeni dilemma: Ermənistan və Azərbaycan

Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) daxil olan ölkələr avqustun 31-dən sentyabrın 1-dək Çinin Tianjin şəhərində keçiriləcək sammitinə hazırlaşır. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun dediyi kimi, Rusiya və Çin ŞƏT-i "sonsuza qədər yüksələn" səviyyəyə çatdırmaq niyyətindədir. Eyni zamanda, Lavrov etiraf edib ki, "Rusiyanın Çin, Hindistan və MDB ölkələri ilə çoxlu mübahisəli problemləri var, onların həlli "maraqlar balansının tapılmasını, təhdid və ultimatumlardan istifadə etməməyi" tələb edir. Xüsusilə ŞƏT-in digər üzvü Pakistanı "terrorizmi dəstəklədiyinə görə" qınamağı tələb edən Hindistanın sərt mövqeyinə görə bu və-



zifə çətin görünür. Baş nazir Modinin ŞƏT sammitində iştirakı sual altında qalır. Digər problem Rusiya ilə münasibətləri gərgin olan və həm də bir-biri ilə sülh müqaviləsi imzalamayan Ermənistan və Azərbaycanın ŞƏT-ə üzv olmaq istəyidir.

## Hindistanın "sıfır tolerantlığı"

Şanxay Əməkdaşlıq Təşkilatının illik sammitinə hazırlıq iyulun ortalarında ŞƏT-ə üzv ölkələrin xarici işlər nazirliklərinin rəhbərlərinin Tyantszin şəhərində keçirilən görüşündən sonra həlledici mərhələyə qədəm qoyub. Çin Sədri Si Cinpin tədbir iştirakçılarını qəbul edərkən ŞƏT-in inkişafı ilə bağlı bir sıra ideyaları açıqlayıb, növbəti sammitin uğurla keçirilməsini əsas prioritet adlandırıb. Rusiya xarici işlər naziri Sergey Lavrovun Çinin xarici işlər naziri Vanq Yi ilə Tianjində keçirdiyi görüşdən sonra bəyan etdiyi kimi, Rusi-



ya və Çin ŞƏT-i "sonsuza qədər yüksələn" səviyyəyə çatdırmağa hazırdır.

Bununla belə, bu iddialı vəzifənin həlli həm ŞƏT üzvləri arasında, həm də yalnız bu təşkilata üzvlük üçün müraciət edən dövlətlər arasında münasibətlərdəki gərgin vəziyyətlə bağlı bir sıra problemlərlə bağlıdır. Bu qıcıqlandırıcıların mövcudluğunu "Gələcəyin Forumu 2050"də çıxış edən Rusiya diplomatiyasının rəhbəri özü etiraf etməyə məcbur olub. "Əlbəttə, bizim böyük qonşularımızla - Çinlə, Hindistanla və MDB ölkələri ilə, Avrasiya İqtisadi İttifaqı ilə mübahisələrə səbəb olan, əlavə nəzərə alınması, əlavə qarşılıqlı güzəştlər tələb edən çoxlu məsələlər var. Əməkdaşlıq nə qədər sıx olarsa, bir o qədər çox məsələlər ortaya çıxır ki, hər kəs öz maraqlarını bir az daha müdafiə etmək istəyir", - Sergey Lavrov bildirib. Onun fikrincə, təhdidlərdən, ultimatumlardan istifadə edilməyincə, "xüsusilə onlar praktikada tətbiq olunmayınca, həmişə dürüst maraqlar balansını tapmaq olar".

Rusiyalı nazirin sözləri və çinli təşkilatçıların Tianjin sammitində münaqişələrin və qalmaqalların qarşısını almaq tapşırığının bütün mürəkkəbliyi Hindistanın ŞƏT-in digər üzvü - Pakistana münasibətdə son dərəcə sərt mövqeyi ilə nümayiş etdirilib. Sergey Lavrov kompromislərə çağırsa da, Hindistan rəhbərliyi terrora qarşı alternativ "sıfır tolerantlıq" prinsipini elan edərək, istənilən kompromisləri yersiz edib. Dehli Pakistanı aprelin 22-də Kəşmirin Pahalqam şəhərində 26 nəfərin ölümü ilə nəticələnən terror aktını təşkil etməkdə ittiham edir.

İyunun 25-26-da Çinin Qinqdao şəhərində keçirilən ŞƏT Müdafiə Nazirlərinin iclasındakı çıxışında Hindistanın müdafiə naziri Racnath Singh terrora "sıfır dözümlülük" prinsipini xüsusi vurğulayaraq, ŞƏT həmkarlarını Hindistanın arqumentlərinin əsaslılığını qəbul etməyə və Pakistana qarşı daha qətiyyətli mövqe tutmağa çağırıb.

Hindistanın müdafiə naziri deyib: "Terrorizmi himayə edən, təşviq edən və öz dar və eqoist məqsədləri üçün istifadə edənlərin nəticələrinə görə məsuliyyət daşımaları son dərəcə vacibdir. Bəzi ölkələr transsərhəd terrorizmdən siyasət aləti kimi istifadə edir və terrorçular üçün təhlükəsiz sığınacaq verirlər. Bu cür ikili standartlara yer olmamalıdır. ŞƏT belə ölkələri qınamaqdan çəkinməməlidir". Lakin Dehlinin bu çağırışı Qinqdaoda eşidilməyib, buna görə də Hindistan tərəfi ŞƏT müdafiə nazirləri iclasının birgə bəyannaməsini imzalamaqdan imtina edib.

Dehlidəki məlumatlı mənbənin verdiyi açıqlamaya görə, demarş Hindistanın Pahalqamdakı terror aktından bəhs olunmayan, lakin Pakistanın Bəlucistan əyalətindəki insidentlərə istinadların yer aldığı birgə sənədin mətnindən razı qalmaması ilə əlaqədar olub. Çin tərəfi Pakistanın ŞƏT səviyyəsində qınanmasının qarşısını ala bilib, bu zaman Hindistan tərəfi Rajnath Singhin Qingdaoda danışdığı "ikili standartlar" görüb.

Hindistanın terrorizmə qarşı "sıfır tolerantlıq" prinsipindən geri çəkilməməkdə qətiyyəti, Dehlinin təfsirinə görə, bu, ilk növbədə Pakistana qarşı qlobal üstünlüyü ilə bağlı olmalıdır, Rio-de-Janeyroda keçirilən BRİKS sammitində baş nazir Narendra Modi tərəfindən təsdiqlənib. Hindistanın sədrliyi ilə keçiriləcək gələn il keçiriləcək sammitə BRİKS liderlərini dəvət edən Narendra Modi deyib: "Terrorçulara qarşı sanksiyaların tətbiqində heç bir tərəddüd olmamalıdır. Terrorun qurbanları və tərəfdarları eyni miqyasda ola bilməz. Terrorizmə səssiz razılıq, terrora dəstək və ya terrorçulara heç bir şəraitdə icazə verilməməlidir". Hindistanın baş nazirinin ŞƏT-in builki sammitində iştirakı təhlükəsizlik və terrorla mübarizə ilə bağlı fikir ayrılıqlarına görə sual altında qalır ki, bu da görüşün ev sahibi Çin sədri Si Cinpini çətin vəziyyətdə qoyur.

## "Şanxay Ruhu"nu sınaqdan keçirmək

2025-ci ildə ŞƏT-in digər problemi təşkilata yeni üzvlərin qəbulu zamanı yarana biləcək yeni təhlükə və risklərdən özünü qorumaq zərurətidir. Bu problemi Belarus Xarici İşlər Nazirliyinin rəhbəri Maksim Rıjenkov Tyantszində keçirilən görüşdə açıq şəkildə etiraf edib. "Belarus nümayəndə heyətinin rəhbəri qarşılıqlı hörmət, bərabərlik və həmrəyliyə əsaslanan "Şanxay ruhu"na sadiqliyini vurğulayıb. O, həmçinin xəbərdarlıq edib ki, ŞƏT-in prinsiplərinə məhəl qoymayan və ya ikitərəfli problemləri onun platformasına köçürən dövlətlərin üzv olması yersiz və zərərlidir", - Belarus XİN-in məlumatında deyilir.

ŞƏT-in təsisçi ölkələrindən biri olan Rusiya üçün yeni dilemma Ermənistan və Azərbaycanın ŞƏT ilə qarşılıqlı əlaqələrin səviyyəsinin müzakirə olunan artırılmasının nə dərəcədə məqsədəuyğun ola biləcəyi məsələsidir. Bu iki Cənubi Qafqaz ölkəsi 2015-ci ildən ŞƏT-in dialoq üzrə tərəfdaşı statusuna malikdir. Lakin Rusiya tərəfi hesab edir ki, hələ



də ikitərəfli məsələləri həll etməyib və sülh müqaviləsi imzalamayıblar. Bundan əlavə, Ermənistan və Azərbaycanın hələ də Rusiyanın müttəfiqi statusuna malik olmasına baxmayaraq, onların Moskva ilə münasibətləri 2025-ci ildə bütün postsovet dövründə tarixi minimum həddə çatıb və pisləşməkdə davam edir.

**V.VƏLİYEV**

# Təmiz enerji dövrünü necə sürətləndirmək olar?

***Bəşəriyyət tarixi boyu enerji oddan istifadə etməkdən tutmuş buxardan istifadə etməyə və atomu parçalamağa qədər insanın taleyini müəyyən etmişdir. Bu gün biz yeni bir dövrün başlanğıcındayıq. Günəş yeni təmiz enerji erasında doğulur. Keçən il enerji tutumundakı artımın demək olar ki, hamısı bərpa olunan mənbələrdən əldə edilib. Təmiz enerjiyə sərmayə 2 trilyon dollara qədər artaraq, qalıq yanacağa qoyulan sərmayəni 800 milyard dollar ötüb. Günəş və külək indi Yer kürəsində ən ucuz enerji mənbələridir və təmiz enerji sektorları iş yerləri yaradır, iqtisadi artıma təkan verir və mədən yanacaqlarına böyük subsidiyalar verilsə belə, irəliləyişə nail olur.***



Qalıq yanacaqlardan yapışan ölkələr iqtisadiyyatlarını qorumaq əvəzinə onları sabote edir, rəqabət qabiliyyətini zəiflədir və 21-ci əsrin ən böyük iqtisadi imkanlarını israf edir. Təmiz enerji həm də enerji suverenliyini və təhlükəsizliyini təmin edir. Fosil yanacaq bazarları qiymət dəyişkənliyinə, tədarükün pozulmasına və geosiyasi sarsıntılara məruz qalır, bunu hamımız Ukraynada NWO-nun başlaması ilə gördük (orijinal mətn Rusiya qanunvericiliyinə uyğun olaraq dəyişdirilib - ”NG”). Eyni zamanda, günəş işığı heç bir qiymət artımına məruz qalmır, küləyə qarşı heç bir embarqo yoxdur və demək olar ki, hər bir ölkədə enerji özünü təmin etmək üçün kifayət qədər bərpa olunan mənbələr var.





Nəhayət, təmiz enerji inkişafı stimullaşdırır. O, xüsusilə şəbəkədən kənar və kiçik miqyaslı günəş texnologiyaları vasitəsilə hələ də elektriksiz yaşayan yüz milyonlarla insana tez, ucuz və davamlı şəkildə çata bilər.

Nəticə etibarı ilə təmiz enerji erası qarşısıalınmazdır. Eyni zamanda, keçid hələ kifayət qədər sürətli deyil və kifayət qədər ədalətli deyil. İnkişaf etməkdə olan ölkələr geridə qalır. Fosil yanacaqlar hələ də enerji sistemlərində üstünlük təşkil edir və iqlim böhranının ən pis təsirlərindən qaçmaq üçün kəskin şəkildə azaldılmalı olan emissiyalar artmaqda davam edir. Vəziyyəti düzəltmək üçün altı cəbhədə hərəkət etməliyik.

Birincisi, hökumətlər təmiz enerji gələcəyinə tam öhdəlik götürməlidirlər. Önümüzdəki aylarda hər bir ölkə qarşıdan gələn onillik üçün hədəflərlə birlikdə yeni milli iqlim planlarını - Milli Müəyyənləşdirilmiş Töhfələr adlanan planlar təqdim etməyi öhdəsinə götürdü. Bu planlar qlobal orta temperatur artımını Selsi üzrə 1,5 dərəcəyə qədər məhdudlaşdırmaq, bütün emissiyaları və sektorları əhatə etmək və təmiz enerjiyə aydın yol təqdim etmək məqsədi ilə uyğunlaşdırılmalıdır. Qlobal tullantıların təxminən 80%-ni təşkil edən G20 ölkələri liderlik etməlidir.




İkincisi, biz XXI əsrin enerji sistemlərini qurmalıyıq. Müasir şəbəkələr və anbarlar olmadan bərpa olunan enerji potensialını reallaşdırmaq mümkün olmayacaq. Bununla belə, bərpa olunan enerjiyə yatırılan hər dollar üçün şəbəkələrə və anbara yalnız 60 sent sərmayə qoyulur. Bu nisbət birə bir olmalıdır.

Üçüncüsü, hökumətlər dünyanın artan enerji tələbatını bərpa olunan enerji mənbələri hesabına ödəməyə öhdəlik götürməlidirlər. Böyük texnoloji şirkətlərin rolu var. 2030-cu ilə qədər məlumat mərkəzləri bu gün bütün Yaponiyada olduğu qədər elektrik istehlak edə bilər. Şirkətlər bərpa olunan enerjidən istifadə etməyi öhdələrinə götürməlidirlər.

Dördüncüsü, biz enerji keçidində bərabərlik yaratmalıyıq. Bu, təmiz enerji gələcəyinə hazırlaşmaq üçün hələ də qalıq yanacaqlardan asılı olan icmaların dəstəklənməsi deməkdir. Bu, həm də kritik minerallar üçün tədarük zəncirlərinin dəyişdirilməsi deməkdir. Bu gün onlar hüquqlardan sui-istifadə və ətraf mühitin dağıdılması ilə xarakterizə olunur, inkişaf etməkdə olan ölkələr dəyər zəncirinin aşağısındadır. Bu dayandırılmalıdır.

Beşincisi, biz ticarəti enerji transformasiyası üçün alətə çevirməliyik. Təmiz enerji təchizatı zəncirləri yüksək dərəcədə lokallaşdırılmışdır və qlobal ticarət parçalanmışdır. Yeni enerji dövrünə sadiq olan ölkələr tədarükləri şaxələndirmək, təmiz enerji məhsulları üzrə tarifləri azaltmaq və investisiya müqavilələrini müasirləşdirmək üçün çalışmalıdırlar.

Nəhayət, altıncısı, biz maliyyəni inkişaf etməkdə olan ölkələrə yönəltməliyik. Keçən il Afrika qitənin dünyanın ən yaxşı günəş resurslarının 60%-nə sahib olmasına baxmayaraq, bərpa olunan enerjiyə investisiyaların cəmi 2%-ni alıb. Biz beynəlxalq səviyyədə hərəkət etməliyik ki, borc ödənişləri inkişaf etməkdə olan ölkələrin büdcələrindən pul çəkməsin və çoxtərəfli inkişaf bankları öz kredit imkanlarını əhəmiyyətli dərəcədə artıra və daha çox özəl maliyyə cəlb edə bilsinlər. Biz həmçinin kredit reytinq agentliklərinin və investorların təmiz enerji vədini, iqlim xaosunun dəyərini və qalıq yanacaq aktivlərinin təhlükəsini nəzərə almaq üçün risk qiymətləndirmələrini modernləşdirməsini təmin etməliyik.

Biz bol, təmiz, ucuz enerjinin iqtisadi imkanlarla zəngin dünyanı gücləndirdiyi, ölkələrin öz enerji muxtariyyətlərinə əmin ola biləcəyi və elektrik enerjisinin hamı üçün əlçatan olduğu yeni enerji erasının astanasındayıq. İndi bizim bu qlobal dəyişikliyi əhəmiyyətli dərəcədə sürətləndirmək imkanımız var. Gəlin onu ələ keçirək.

**V.VƏLİYEV**

# Neçə övladımız olsun: bir, iki, üç, yoxsa...

***Avropaya doğru çıxdığımız yolçuluqda arxada qoyub üzərindən irəliyə addımladığımız məsələlərdən biri də dünyaya gələn uşaqların hər il sayının azalmasıdır. Bu say o qədər azalıb ki, indi üçuşaqlı ailələr barmaqla göstəriləcək qədər qalıb. Müasir ailələrimizdə iki uşaq, son vaxtlar isə bir uşaqla kifayətlənmək bizim hələ bir neçə illər öncəki avropalaşmaq meylimizin bəhrəsidir. Hansı ki, artıq budur, meyvəsini dəririk.***



Tanıdığım yaşlı bir qadın var, mama-tibb bacısıdır. O deyir ki, ailədə iki uşaqla kifayətlənmək tamamilə səhv fikirdir. Həmin ailə fikirləşməsin ki, biz dünyaya insan bəxş etdik. İki uşaqdan biri ata, biri anadır. Əgər ailədə üçüncü uşaq varsa, bu, artım sayıla bilər.

Nə qədər doğru söylənmiş fikirdir. Dəfələrlə təsadüf etmişik ki, ailələrdə iki övladdan biri ya xəstəlikdən, ya da hansısa qəza nəticəsində dünyasını dəyişir, o biri uşaq tək qalır, bundan böyük travma alır. Bu, həm də uşaqların psixoloji durumuna ciddi təsir göstərir. Qardaş və ya bacısını itirən uşaq əgər ailədə üçüncü uşaq olarsa, onunla təsəlli tapar, əks təqdirdə onun vəziyyətini düşünmək heç də çətin deyil. Belə uşaqlar üçün gələcək həyat daha dözülməz olur. Çünki onlar tamamilə tək qalırlar.





## Qadınlar günahkardır...

İki övladından birinin oğlan olması ilə kişi artıq ailə üzvlərinin daha da artmasında maraqlı olmur. Çünki onun artıq oğlu var. Hər bir kişinin arzusunda olduğu, doğulmasını səbrsizliklə gözlədiyi oğlu. Elə ki, birinci və ya ikinci uşaq oğlan oldu, deməli, kişilər arzularına çatdılar. Onlar daha ailə artımı barədə düşünmürlər.

Məsələnin bu tərəfi üçün məhz qadınlar günahkardır. Çünki qadın həm də anadır. Övladının bu gününü və gələcəyini düşünmək kişilərdən çox qadınlara bəxş olunan hissdir. Bu səbəbdən də qadınlar iki uşaqla kifayətlənməməlidir. Lakin onlar işlərinin yüngül olması, karyera dalınca gedə bilmələri, daha çox əziyyət çəkməmələri üçün USM-lərin köməkliyi ilə ailə planlaşdırması tərtib edərək bu kimi problemlərin yaranmasına rəvac verirlər. O problemlər ki, əhali sayının da, ailədə uşaq sayının da artımına və bunun yaratdığı problemlərə ciddi şəkildə təsir göstərir. Əslində isə dünyaya uşaq gətirmək, onun qayğısına qalmaq, gözəl tərbiyə verib böyütmək valideynlərin, xüsusilə də anaların üzərinə düşən mühüm vəzifədir. Digər işlər, karyeralar isə bundan sonra düşünülməlidir.

Axı biz ailə dəyərlərimizə bu cür münasibət bəsləyə-bəsləyə onu cılızlaşdırırıq. Ailəyə iki övlad bəxş etməklə ölkəmizin əhali sayına, inkişafına zərbə vurmuş oluruq. Mənsub olduğumuz kökün, nəslin getdikcə azalmasına, yoxa çıxmasına şərait yaradırıq...

## Bacısız qardaşlar, qardaşsız bacılar və ya əmi-dayısız, bibi-xalasız uşaqlar

Beləliklə, cəmiyyətimizə yeni ailə modelləri təqdim edirik. Azuşaqlı, azüzvlü, qohumsuz ailə modelləri. Hazırda yüzlərlə ailə var ki, onlar bir uşağa sahibdirlər. İkincisi barədə isə əsla düşünmürlər. Bu isə yüzlərlə qardaşsız bacı, bacısız qardaş deməkdir. Tək böyüyən, ata-ana dünyasını dəyişəndən sonra tamamilə təkləşən uşaqlar deməkdir. Gələcəkdə övladının bu təkliklə necə yaşayacağını valideynlər bu gün düşünürlərmi? Düşünsələr, yəqin ki, övladları üçün məlum gələcəyi verməzlər.



Və yaxud də ailə iki uşaqla kifayətlənirsə, əmi-dayısız, xala-bibisiz bir cəmiyyət formalaşdırırıq. Son onilliklərin ailə modeli olan ikiuşaqlı ailələrdə bir qız, bir oğlan doğulur. Minlərlə belə ailələr var. USM-lərin köməyi ilə bir qızı övladı olan ailələr ikinci uşağı oğlan istəyir və buna selektiv abortların köməyi ilə nail olurlar. Beləliklə də onların həm qızı, həm oğlu olur. Bu uşaqlar isə gələcəkdə yalnız dayı və bibi olurlar. Əmi və xala qohumluğu isə artıq sona çatmaqdadır. Biz özümüz öz əllərimizlə əmisiz və xalasız cəmiyyət qururuq. Hansı ki, bizdə xalaya ikinci ana, əmiyə ikinci ata deyirlər. Yeri gələndə-həyatın sərt üzü ilə qarşılaşanda xala bacısının övladlarına analıq, əmi isə qardaşının övladlarına atalıq edə bilir. Yalnız iki uşaqla-həm də onlardan birinin qız, digərinin isə oğlan olması ilə kifayətlənməklə bu kimi "yeniliklərə" rəvac veririk.

## Məsələnin əsas tərəfi də var...

Bəli, bu məsələnin əsas tərəfi haqqında danışmamaq olmur. Ailələrdə iki uşağın olduğu məlumdur. Bəs sual edən varmı ki, nə üçün bir qız, bir oğlan? Belə ailələrin əksəriyyətində ilk uşaq qızdır. Məhz qız olduğu üçün də valideynlər oğlan axtarışına çıxır. Nə etməli ki, ikinci uşaq hökmən oğlan olmalıdır. Beləliklə yeni bir proses başlayır. Analar növbəti hamilələri o vaxta qədər pozur ki, USM ona oğlun olacaq deyir. Beləliklə də birinci uşaqla ikinci arasında 2-3, bəzən də bundan da çox qız uşağını qurban veririk. Onlar selektiv abortların qurbanına çevrilir.

Yox, əgər ailədə ilk uşaq oğlandırsa, müasir valideynlər bəlkə də bununla kifayətlənərlər. Lakin ata-analarının təkidi ilə, "bir uşaqla olmaz" tələbi, umu-küsüsü ilə bir neçə ildən sonra ikinci uşağın doğulmasını planlaşdırırlar. Bu dəfə isə fərq etməz, qız, ya oğlan olsun. Çünki istənilən əsas övlad-oğlan artıq onlarda var.

Beləliklə, bu qənaətə gəlmək olar ki, cəmiyyətimiz ciddi bir xəstəliyə düçar olub. Yaxşı həkimlər lazımdır ki, bu səhv psixoloji vəziyyətdən bizi çıxara bilsin. Ailənin, övladların dəyərini bizə anlada bilsin. Uşaqların çoxsaylı olmasının onların gələcəkdə bir-birinə dəstək, arxa-dayaq olmasını anlada bilsin.

Bizə yaxşı ağsaqqal və ağbirçəklər lazımdır ki, əvvəlki illərdən söhbət açsın. Çoxuşaqlı ailələrdən, çoxsaylı bacı-qardaşlardan danışsın. Belə ailələrdə yaşanan maraqlı anları, xoşbəxtliyi anlatsın. Toy-ziyafətlərdə əmi-dayı, bibi-xala uşaqlarının gəlinin, bəyin ətrafında yaratdığı xoş xatirələri xatırlatsın. Onların bir-birilərinə arxa-dayaq, dost-rəfiqə olmasından, bununla da bütövlükdə həyatlarının maraqlı keçməsindən söhbət açsın. Hansı ki, biz uşaqlarımızı bu xoşbəxtlikdən məhrum edənlərik.

Nə oldu bizlərə, nə üçün bu qədər dəyişdik? Nə üçün nənə-babalarımızın ardınca deyil, Avropanın ardınca getməyə üstünlük verdik? Nə üçün özümüzün neçə-neçə əmi-dayımız, xala-bibimiz ola-ola övladlarımızı bu qohumlardan məhrum edirik? Bu haqqı bizə kim verir? Avropamı? Axı əsrlərin o üzündən bəri onlarla bizim bütün dəyərlərimiz fərqli olub. Onlar ailə dəyərlərinə görə həmişə bizə köks ötürüblər. Bizi nümunə göstəriblər. Çoxuşaqlı ailələr onlar üçün bir möcüzə qaynağı olub. Biz nə edirik? Bir vaxtlar bizə oxşamağa çalışanlara indi biz oxşayırıq?..

## Nə qədər ki, selektiv abortlar var...

2024-cü ildə Azərbaycanda doğulan 102 min 310 nəfər körpənin 54 min 221-i oğlan, 48 min 89-u isə qız uşaqlarıdır. Doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı fərq 6132 nəfərdir. 2022-ci ildə isə 122846 körpə doğulmuşdu. Onlardan 64940 nəfəri oğlan, 57906 nəfəri isə qız uşaqları olub. Göründüyü kimi, həm doğum sayı aşağı enib, həm də oğlan uşaqları qızlardan hələ də çox doğulur.

Azərbaycanda 100 qıza 113 oğlan düşür. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir. Nəzərə almaq lazımdır ki, dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür. 1990-cı illərin əvvəllərindən Azərbaycanda bu nisbətin pozulması müşahidə edilir.

BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq.

Ekspertlər bu fikirdədir ki, cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura Gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir. Bu vəziyyətlə qarşılaşmaq istəmiriksə...

## Selektiv abortlar qadağan olunmalıdır

Selektiv abortlar insanlığa qarşı haqsızlıq, təhqirdir. Qadınla kişi arasında bərabərliyə zidd, ən təhlükəli vasitədir. Hansı ki, biz Gender bərabərliyindən danışırıq, lakin bu bərabərliyi pozan birinci amil selektiv abortlardır.

Selektiv abortların çoxalmasında, dünyada ölkəmizi birinci etməsində, oğlan və qız balansının pozulmasında, bunun gələcəkdə böyük problemlərə səbəb olmasında hər birimiz günahkarıq. Biz illər öncədən bu xalqa məxsus milli adət-ənənələrdən yola çıxmalıydıq. Bu yolda insanlığa balta çalan bu yeniliyi baltalamalı, onun inkişafının, yayılmasının qarşısını almalıydıq.

Bu gün son illərin statistikasına nəzər salanda bütün illərdə doğulan uşaqlar arasında oğlanların qızlardan artıq olmasını müşahidə edirik. Bunun yaratdığı problemlər isə artıq hiss olunmaqdadır. Yaxın gələcəkdə isə bu problemin ağırlığı çiyinlərimizi yara edəcək. Bu gün Azərbaycanın selektiv abortlara görə dünyada birinci yerdə olması artıq səhiyyə sistemində həyacan təbili çalınmasının vaxtının ötdüyünü göstərir. Selektiv abortlar indiyədək niyə qadağan olunmayıb? Görəsən bunun qarşısını nə kəsib? Çünki kiminsə haqqı deyil dünyaya gətirəcəyi uşağın cinsini əvvəlcədən bilsin. Heç kimin də bunu bilməməklə hüququ pozulmur. Bəs belə isə bu növ abort nə üçün qadağan olunmur?

Oğlanların sayı artır, qızların sayı dəfələrlə azalır. Biz gələcəkdə ana olacaq qız tapa bilməyəcəyik. Bir əmili, xalalı uşaq görməyəcəyik. Ən dəhşətlisi isə bacısız və qardaşsız bir cəmiyyətə doğru gedirik. Bu barədə düşünmək hələ də gec deyil...

***Mətanət Məmmədova***

# Həsənriz kəndinə növbəti köç

## *Əzəli sakinlərdən bu mərhələdə 29 ailə - 114 nəfər doğma yurda köçürüldü*

**Tərtər rayonundan yola salınan növbəti köç karvanı Ağdərə rayonunun Həsənriz kəndinə çatdı. Ağdərə rayonunun Həsənriz kəndində 29 ailə olmaqla, 114 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşdu. İşğaldan azad olunan ərazilərimizdə yeni bir dövrün başlandığını ifadə edən tarixi köçlər. Abadlıq-quruculuq, yeni həyata qayıdış dövrü kimi xarakterizə edilən bir zamana şahidlik edirik. Yaddaşımızda daşlaşacaq bir qayıdış əzəli sakinləri doğma yurda qovuşdurur. Həsrətlə, intizarla, göz yaşları içərisində gözlədiyimiz tarixi günlər. Yüzlərlə insanın qanı tökülən torpaqlarda doğma insanların səs-sədası eşidilir. Növbəti köç karvanı Ağdərə rayonunun Həsənriz kəndinə əzəli sakinlərini sevinc göz yaşlarında çatdırdı.**











Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

İyulun 24-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Tərtərdən Ağdərənin Həsənriz kəndinə yola salınıb. Həsənriz kəndinə bu mərhələdə 29 ailə - 114 nəfər köçürülür. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Hazırda Qarabağda və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə 50 mindən çox insan yaşayır.

### MÜBARİZƏ VƏ BİRLİK SİMVOLU

Azərbaycan Prezidenti İlham Əliyevin müdrik strategiyası və ordunun qətiyyətli fəaliyyəti ölkənin suverenliyini və ərazi bütövlüyünü bərpa edib. Dövlət başçımızın ”Qarabağ Azərbaycandır!” sözləri mübarizə və birlik simvoluna çevrildi və Prezidentlə xalqın sıx birliyi Böyük Zəfərin təminatına çevrildi. Azərbaycan xalqı üçün Zəfər Günü həm qürurumuzu yaşadan, həm də gələcəyin parlaq hədəflərinə gedən yolda mühüm bir tarixdir. Prezident İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, ”44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, parlaq Qələbəmizdir. Biz həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin, eləcə də antiterror əməliyyatının şəhidlərinin qanını döyüş meydanında aldıq, öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdik”. Otuz ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan yeni bir dövrünə qədəm qoyub. Azərbaycan daha uğurlu bir gələcəyə doğru irəliləyir. Tarixi Zəfərimiz ölkəmizin sülh və təhlükəsizlik şəraitində inkişafı, eləcə də regionda davamlı sülh üçün daha möhkəm əsaslar yaradır.

### BÖYÜK QAYIDIŞI DAHA DA SÜRƏTLƏNDİRƏCƏK SƏNƏD

İşğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi fəaliyyətə reinteqrasiyası, əhalinin öz yurdlarına təhlükəsiz şəkildə qayıtması, habelə Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı məskunlaşmanın və məşğulluğun təmin olunması istiqamətində görülən işlər Böyük Qayıdış prosesini ölkənin sosial-iqtisadi inkişafında qazanılan nailiyyətlərin ayrılmaz tərkib hissəsinə çevirmişdir. Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olub. Bu mərhələ qlobal iqtisadi qütbləşmənin dərinləşməsi, texnoloji tərəqqinin sürətlənməsi, eləcə də süni intellekt əsaslı texnologiyaların geniş tətbiqi ilə səciyyələnir.

Ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması, bunun üçün özəl, o cümlədən birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, biznes mühitinin əlverişliliyinin yüksəldilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun gücləndirilməsi, həmçinin işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin edilməsi məqsədilə ”Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın hazırlanması haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Bütün bunlar Böyük Qayıdışı daha da sürətləndirəcəkdir.

### ”BU TORPAQLARDA ƏBƏDİ YAŞAYACAĞIQ”

Bu gün ermənilərin viran qoyduqları ərazilərdə irimiqyaslı layihələr icra olunur. Şəhərlərin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələri salınır. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Artıq görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış ardıcıl olaraq həyata keçirilir. ”Biz müzəffər xalqıq, qalib xalqıq. Öz torpağımızda yaşayırıq. Bir daha sübut etdik ki, bu torpaqların sahibi bizik, çünki biz dağıdan yox, qurub-yaradanıq və bundan sonra da bu torpaqlarda əbədi yaşayacağıq”, - deyə Prezident bildirib.

Qarabağ iqtisadi rayonunun və Şərqi Zəngəzur iqtisadi rayonunun çox geniş inkişaf potensialı var və burada sürətli işlər həyata keçirilir.

Məlumdur ki, görülən işlərin ilkin nəticəsi olaraq 2022-ci ildə Zəngilan rayonunun Ağalı kəndinin sakinləri doğma yurdlarına qayıtdılar. Həmin vaxtdan etibarən keçmiş məcburi köçkünlərin doğma yurdlarına köçürülməsi prosesi davam edir. Düşmənin darmadağın etdiyi şəhərlərin və kəndlərin bərpası hazırda sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində böyük addımlar atılır.

### QURUB-YARADAN, MƏĞRUR VƏ QALİB XALQ

44 günlük Vətən müharibəsində Zəfər qazanan Azərbaycan artıq öz torpaqlarına sahibdir. Dünya ölkələrindən gələn nümayəndələr erməni xisləti, barbarlığı ilə yaxından tanış olur və real vəziyyət onların acı təəssüratlarını qələmə almağa, fikirlərini dünya ictmaiyyətinə çatdırmağa vadar edir. Bildiyimiz kimi, dünya ölkələrində olan KİV-lər müharibə dövründə hadisələrin gedişi ilə yaxından tanış oldudar və erməni təcavüzkarlığı ilə bağlı gördükləri bu vəhşiliklərlə bağlı olan düşüncələrini daha da dərinləşdirdi. Bərdə, Gəncə kimi şəhərlərə dinc əhaliyə qarşı vandallıqları hər kəsi hiddətləndirdi. Bu gün Qalib bir dövlətin işğaldan azad olunan torpaqlarına səfər edərək mövcud vəziyyətlə, dağıdılmış və viran qoyulmuş ərazilərimizlə yaxından tanış olurlar.

Əlbəttə ki, bu gün Böyük qələbədən sonra işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Böyük Qayıdış və görülən işlər, icra olunan layihələr də dünyaya Azərbaycanın iqtisadi gücünü, potensialını və həmrəyliyini bir daha nümayiş etdirir. Bu gün Qarabağ və Şərqi Zəngəzurumuzda azad nəfəs alır və qurub yaradırıq. Qurub-yaradan, məğrur və QALİB xalq olaraq!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Orta Dəhliz geniş coğrafiyanı birləşdirən nəhəng layihədir

**İkinci Qarabağ müharibəsində qazandığı tarixi Qələbə ilə regionda yeni reallıqlar yaradan, beynəlxalq aləmdə söz sahibinə çevrilən, bölgənin aparıcı siyasi və iqtisadi gücünə çevrilən Azərbaycan bu gün Şərqlə Qərbi birləşdirən bir körpü rolunu oynayır. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm yer tutan, Xəzər hövzəsi dövlətlərinin Qərbə çıxış yolu olan Azərbaycan Çinin nəhəng "Bir kəmər, bir yol" layihəsində iştirak etməklə birləşdirici funksiyanı yerinə yetirir.**




Bu gün Şərq-Qərb və Şimal-Cənub Beynəlxalq Nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq Şimal-Qərb, Cənub-Qərb marşrutları üzərində fəal iş aparan Azərbaycanda son illər beynəlxalq yükdaşımalarının inkişaf etdirilməsi istiqamətində mühüm layihələr, Dövlət proqramları həyata keçirilib, modern infrasturktur, müasir standartlara cavab verən idarəetmə sistemi yaradılıb. Azərbaycanın nəqliyyat dəhlizlərində rolunun artırılması baxımından 2023-cü il noyabrın 23-də Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024?2026-cı illər üçün Fəaliyyət Planı" bunun əyani təsdiqidir. Sənəddə qarşıya qoyulan vəzifələr layiqincə yerinə yetirildikdən sonra Orta Dəhlizin potensial imkanları uğurla reallaşacaq, ölkəmizin beynəlxalq daşınmalardan daha çox gəlir əldə ermasinə geniş imkanlar yaranacaq.

Bu gün dünyanın ikinci böyük iqtisadiyyatına sahib olan Çinin Orta Asiya ölkələri vasitəsilə Azərbaycan üzərindən Avropaya yük daşıması respublikamız üçün mühüm əhəmiyyətə malikdir. Dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda beynəlxalq nəqliyyat daşımalarında strateji önəmini gündən-günə artıran Azərbaycan hazırda Azərbaycan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) daha da güclənməsinə böyük töhfələr verir. Yeri gəlmişkən, Orta Dəhliz və ya Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Prezident İlham Əliyev iyulun 19-da Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçılarının suallarını cavablandırarkən bildirib ki, hazırda Çindən Azərbaycan ərazisi vasitəsilə yükdaşımaların həcmi sürətlə artır: "Eyni zamanda, Xəzər dənizinə çıxacaq Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan dəmir yolu yenidən tikilir. Yəni, görürsünüz ki, artıq hansı böyük axınlar gedir və bu, bizim istiqamətimizdə davam edəcək. Ona görə də biz təkcə Bakı limanında yüklərin qəbuluna və onları işləməyə deyil, həm də Bakı-Tbilisi-Qars dəmir yolu ilə Gürcüstandan keçməklə Türkiyəyə və daha sonra Aralıq dənizi limanlarına Zəngəzur vasitəsilə göndərməyə hazır olmalıyıq ki, bu, eyni zamanda, əsas nəqliyyat marşrutu olacaq. Amma təəssüflər olsun ki, son beş ildə Ermənistan tərəfində heç bir iş aparılmayıb, bu məsələ qəsdən gündəmdən çıxarılıb. Amma belə olan halda Ermənistanın nə vaxtsa tranzit ölkəyə çevrilmək şansı sıfra yaxınlaşır. Bu prosesin qarşısını almaqda davam etsələr düşünürəm ki, özlərini nəinki bu gün düşdükləri nəqliyyat təcridində, həm də müəyyən dərəcədə siyasi təcriddə tapacaqlar".



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzi bildirir ki, Orta Dəhlizin inkişaf etdirilməsi sahəsində xüsusilə Azərbaycan və Qazaxıstanın birgə səyləri nəticəsində Çindən dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması müddəti 53 gündən hazırda 18 günə qədər azaldılıb. Çinin Sian şəhərində istismara verilmiş Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən konteyner qatarı vasitəsilə daşımaların həyata keçirilməsi Orta Dəhlizin bütün iştirakçı dövlətləri, eyni zamanda, Avropa bazarları üçün böyük əhəmiyyət kəsb edir. Mərkəz hesab edir ki, Siandakı Qazaxıstan terminalından başlayaraq Aktau və Abşeron stansiyasiyalarından keçən və uzunluğu 7 min kilometr olan marşrutu 11 günə qət edən qatar nəqliyyatı Orta Dəhlizin rəqabətqabiliyyətini artırmaqla, multimodal daşıma sahəsində ölkələr arasında ticarət, gömrük və sair sahələrdə regional inteqrasiya təşəbbüslərini sürətləndirəcək.

Nüfuzlu beynəlxalq təşkilatların məlumatlarından aydın olur ki, Çin-Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanan Orta Dəhlizə hazırda dünyada daha çox ehtiyac duyulur. Zəngəzur dəhlizinin reallaşması ilə Asiya və Avropa arasındakı Orta Dəhlizin dəmir yolu və avtomobil yolu ilə yükdaşıma gücü daha da artacaq ki, bu da Pekindən Londonadək uzanan Şərq-Qərb ticarətinin yüksəlməsinə ciddi təkan verəcək. Zəngəzur dəhlizinin reallaşması isə potensialını gündən-günə artıran Orta Dəhlizin gələcək inkişafı və genişlənməsində mühüm amil olacaq. Nüfuzlu beynəlxalq təşkilatların da bildirdiyi kimi, Orta Dəhliz yaxın gələcəkdə qlobal tədarük zəncirinin ən mühüm hissəsi kimi yeni sürətli inkişaf mərhələsinə daxil olmaqla Avrasiyada yeni iri ticarət marşrutuna çevriləcək. Vaşinqtondakı Xəzər Siyasəti İnstitutu 2030-cu ilə qədər Orta Dəhliz üzrə ticarətin həcmini 11 milyon ton artırmaq potensialına malik olduğunu bildirib.

Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunda bildirib ki, bağlantı layihələrinə gəldikdə, biz, ilk növbədə, Orta Dəhlizi qeyd etməliyik: "Bu, bu gün çox geniş coğrafiyanı birləşdirən bir layihədir. Mən artıq bir neçə dövləti qeyd etdim. Həmin dəhliz Şərqdən Qərbi Avropaya qədər uzanır və bu da müxtəlif aktorlar arasında anlaşmaya səbəb olacaq. Burada daha çox anlaşmaya ehtiyac var".

***Zahid Rza***

# Uşaq əmzikli qabı:
# Şüşə, plastik, yoxsa silikon?

***Valideynlik qərarları arasında ən vaciblərindən biri də uşağın qidalanmasında istifadə ediləcək uşaq əmzikli qabının (uşaq butulkasının) düzgün seçilməsidir. Bu seçim ilk baxışda sadə görünsə də, əslində bir sıra sağlamlıq, təhlükəsizlik və praktik amilləri əhatə edir. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

**Butulkalar əsasən üç növdə təqdim olunur:** şüşə, plastik və silikon. Hər birinin özünəməxsus üstünlükləri və çatışmazlıqları vardır və seçim zamanı uşağın yaşı, həyat tərzi və valideynin prioritetləri nəzərə alınmalıdır.



## Şüşə butulka - Təhlükəsiz və dayanıqlı seçim

Üstünlükləri:

Kimyəvi sabitlik: Şüşə butulkalar BPA, ftalat, PVC kimi zərərli kimyəvi maddələr ifraz etmir. Bu da onları yeni doğulanlar və südün tez-tez isitildiyi hallarda daha təhlükəsiz edir.



**Təmizliyi asandır:** Yüksək temperaturda yuyula və sterilizə oluna bilər. Bakteriya yığılmasına az şərait yaradır.

Dad saxlamır: Süd və digər mayelərin dadını və qoxusunu saxlamır.

Çatışmazlıqları:

Qırılma riski: Yerdə qırıldığı zaman uşaq üçün təhlükəli ola bilər. Lakin silikon qoruyucu ilə bu risk minimuma endirilə bilər.

**Ağırdır:** Səfərlər və çantada daşımaq üçün praktik deyil.

**Qiymət baxımından baha:** Əlavə ehtiyat butulka almaq istədikdə büdcə üçün çətinlik yarada bilər.

Plastik butulka - Yüngül və geniş yayılmış seçim

Üstünlükləri:

**Rahat və yüngüldür:** Səfər və aktiv həyat tərzi üçün daha əlverişlidir.

**Qırılmır:** Uşağın əlinə vermək və özbaşına qidalanma təlimləri üçün uyğundur.

**Əlçatan qiymət:** Geniş çeşiddə və münasib qiymətə tapmaq mümkündür.

Çatışmazlıqları:

**Kimyəvi risk:** BPA və digər zərərli maddələr ifraz edə bilər. Bu səbəbdən yalnız "BPA-free" və sertifikatlı brendlər seçilməlidir.

**Çatlama və deformasiyaya meyillidir:** İsti maye və yuma zamanı plastik zəifləyə bilər.

**Bakteriya riski:** Cızılmış səthlərdə bakteriyalar toplanaraq sağlamlıq riski yarada bilər

## Silikon butulkalar - Yeni nəsil alternativ

Son illərdə silikon butulkalar da popul-




yarlıq qazanıb. Onlar yüngül, çevik və kimyəvi cəhətdən sabitdir. BPA-sız olmaları, qırılmama xüsusiyyətləri və müasir dizaynları ilə valideynlərin seçimi olurlar. Lakin qiymət baxımından plastikdən daha bahadır və bəzi modellər südün tam tökülməsini çətinləşdirə bilər.

## Elmi baxış: Hansı daha təhlükəsizdir?

ÜST və Amerika Pediatriya Akademiyası,




körpələr üçün məhsullarda BPA və digər endokrin sistemə təsir edən kimyəvi maddələrin qarşısının alınmasını tövsiyə edir.

Tədqiqatlar göstərir ki, yüksək temperaturda istifadə edilən plastik butulkalar mikroskopik səviyyədə kimyəvi maddələr ifraz edə bilər. Şüşə butulkalar bu baxımdan daha sabit və təhlükəsiz hesab olunur, xüsusilə həyatın ilk

## Seçim zamanı diqqət yetirilməli əsas meyarlar

Material:

Şüşə - Yeni doğulanlar üçün daha təhlükəsiz.

Plastik - "BPA-free" və tanınmış brendlər seçilməlidir.

Silikon - Müasir və praktik, lakin bahalı.

Tutum:

- 0-3 ay: 90-120 ml
- 3-6 ay: 150-180 ml
- 6 aydan sonra: 240 ml və daha çox

Əmzik forması:

- Ortodontik və anti-kolik sistemli əmziklər qaz, sancı və ağız-çənə inkişafı üçün faydalıdır.

Sterilizasiya rahatlığı:

- Geniş ağızlı butulkalar daha asan təmizlənir.

## Tövsiyə edilən beynəlxalq brendlər

Philips Avent

Şüşə və BPA-sız plastik, anti-kolik sistem

Dr. Brown's

Qaz və sancı qarşıtı sistemlər

Tommee Tippee

Yumşaq əmziklər, rahat tutuş

Medela

Ana südü uyğunluğu, sağlam material

NUK

Ortodontik dizayn, keyfiyyətli komponentlər

Azərbaycan bazarında mövcud tanınan markalar:

- Canpol Babies - Polşa istehsalı, münasib qiymət və geniş çeşid.
- Chicco - İtaliya brendi, yüksək keyfiyyətli material.
- Lovi - Ortodontik əmziklər və innovativ dizayn.

Təhlükəsizlik üçün praktiki məsləhətlər:

Yeni alınan



butulkanı sterilizasiya etmədən istifadə etməyin.

Plastik butulkaları zaman-zaman dəyişin - 2-3 ayda bir.

Əmziklərdə cızıq və çatlara diqqət edin.

Mikrodalğalı soba və sterilizator uyğunluğuna baxın.

İkinci əl butulka istifadə etməyin.

Şüşə butulkalar üçün silikon qoruyucu istifadə edin.

Hansı butulkanı seçməyinizdən asılı olmayaraq, əsas diqqət uşağın sağlamlığı, məhsulun təmizliyi və materialın keyfiyyətində olmalıdır. Düzgün seçilmiş uşaq butulkası körpənin rahat və təhlükəsiz qidalanmasını təmin etməklə yanaşı, valideyn üçün də rahatlıq yaradır.

***Ayşən Vəli***

**Dünya siyasət səhnəsində əsəb gərginliyi üzərində ağır, üzücü proseslər hökm sürür. Aparıcı dövlətlərin bəzi rəhbər şəxsləri görüntü xatirinə də olsa, dünyanı cənginə alan müharibələrdən, münaqişələrdən xalqları xilas etməyə çalışırlar. Hətta ABŞ-ın yeni prezidenti Donalt Dramp İsraillə fars-molla rejimi arasında baş verən qanlı müharibəni dayandırmağa müvəffəq oldu. Düzdür, toqquşmalar zamanı ABŞ təyyarələri fars-molla rejiminin bir sıra ərazilərinə raketlərlə zərbələr endirdilər. Bununla ABŞ bir növ gücünü nəinki fars-molla rejiminə, eləcə də Rusiya, Çin, Şimali Koreya kimi dövlətlərə nümayiş etdirdi. Fars-molla rejiminin əraziləri bombaladıqdan az sonra müharibənin dayandırılması üçün D.Tramp ortaya qətiyyətli mövqe qoydu və istədiyinə də nail oldu.**



# Avropa Ukraynaya ordu göndərir - böyük müharibə qapıdadır!

Ancaq D.Tramp bu prinsipiallığını Rusiya-Ukrayna müharibəsində nümayiş etdirə bilmir. Halbuki, D.Tramp prezident seçkiləri ərəfəsi Rusiya-Ukrayna müharibəsinin 3 günə dayandırılacağını bəyan etmişdir. Hətta Ukrayna prezidenti Zelenskini güzəştə məcbur edən addımlarda atdı. Rusiya -Ukrayna nümayəndə heyətləri arasında Türkiyədə görüşlərdə təşkil edildi. Lakin rəsmi Kreml iddialarından və istəklərindən geri çəkilmədiyi üçün danışıqlar nəticəsiz qaldı. Bundan sonra ABŞ tərəfi məcburi qaydada Ukraynaya hərbi və maliyyə yardımlarını davam etdirəcəyini bəyan etdi. Bu baxımdan demək olar ki, hazırda Rusiya- Ukrayna müharibəsi gərgin formada davam edir. Tərəflərin bir-birinə güzəştə getmək istəməməsi qanlı müharibənin hələ uzun illər dayandırmasının mümkün olmayacağından xəbər verir. Bu isə minlərlə insanın ölümü, yüzlərlə şəhər və kəndlərin dağıdılması, tarixi, memarlıq nümunələrinin yer üzündən silinməsi, milyonlarla insanın ev-eşiyindən didərgin düşməsi deməkdir.

Avropa ölkələri Ukraynaya maliyyə yardımlarını artırmağı düşünür. Bu barədə Avropa komissarı Marta Kos bəyan edib. O, Ukraynaya Rusiya ilə müharibədə indiyədək 134 milyard avrodan çox dəstək verdiklərini bildirib. 24 fevral 2022-ci ildə başlayan müharibədə AB-nin Ukraynaya verdiyi dəstək haqqında məlumatları paylaşan Kos, "AB və üzv ölkələrin ümumi dəstəyi indiyə qədər 134 milyard avronu keçib", - deyə qeyd edib. Kos AB-nin Ukraynanın müdafiə sektorunda ən böyük beynəlxalq donor və dövlət sərmayəçisi olduğunu vurğulayaraq, "1 milyondan çox patron təmin etdik və bu qışın sonuna qədər 75 min əsgərə təlim keçəcəyik. Müharibədən qaçan 4,5 milyon insan Aİ-də müvəqqəti qoruma aldı", - deyə söyləyib.

Ukrayna ilə üzvlük prosesinə də toxunan Kos "Ukraynanın səylərinə cavab verməli və danışıqların ilk raundunu bu il mümkün qədər tez açmalıyıq" deyə bildirib və qeyd edib ki, müharibədən sonra Aİ öz tarixində ilk dəfə olaraq Ukraynaya silah və digər hərbi texnikanın alınması və çatdırılmasını maliyyələşdirməyə qərar verib: "Aİ razılaşmaları Aİ-yə hərbi əməliyyatları maliyyələşdirmək üçün müntəzəm büdcəsindən istifadə etməyi qadağan etdiyinə görə, Aİ "Avropa Sülh Fondu" adlı büdcədənkənar resursdan istifadə edib".

İndiyədək Ukraynaya edilən bütün yardımların təxminən yarısını ABŞ təkbaşına maliyyələşdirib. ABŞ prezidenti D.Tramp ayrılan yardımların məbləğini azaltmaq haqqında düşündüyünü bildirsə, İstanbul danışıqlarının nəticəsiz qalmasından sonra siyasətini dəyişdiyini bəyan edib. Yəni bundan sonra ABŞ Ukraynaya hərbi və maliyyə yardımlarını davam etdirəcək.

## Fransa müharibənin gərginləşməsinə çalışır

Rusiya-Ukrayna müharibəsini dayandırmaq mümkün olmadıqda, bəzi ölkələr bundan istifadə edərək, yeni ideya və təkliflərlə çıxış edirlər. Xüsusilə də, Almaniya və Fransa Rusiyanın cəzalandırılması üçün Ukraynaya maliyyə vəsaitlərini və hərbi silah-sursatın həcmini artırmağı təklif edirlər. Hətta Almaniyanın keçmiş kansleri O.Şolts Avropa ölkələrini Ukrayna ordu göndərməyə razı salmaq üçün ardıcıl 3 görüşün təşkil edilməsinə nail oldu. Lakin Fransa istisna olmaqla digər Avropa dövlətlərin başçıları O.Şoltsun təklifinə dəstək vermədilər. Çünki Rusiya hakimiyyəti ultimativ şəkildə bəyan edib ki, Ukraynaya ordu göndərilsə və həmin ordu birləşmələri Rusiyaya qarşı döyüşlərdə iştirak etsə, o zaman Avropa şəhərləri legitim hədəfləri olacaq. Hətta Putin və Medvedev nüvə silahından istifadə etməklə dünyanı təhlükə ilə üzüzə qoyacaqlarını bəyan ediblər. V.Putin açıq şəkildə bildirmişdir ki, "Rusiyasız dünya bizim nəyimizə lazımdır". Bu baxımdan heç bir Avropa ölkəsi əlində hər cür müasir silahı olan Rusiyanın qəzəbinə tuş gəlmək istəmirlər. Müxtəlif diplomatik yollarla Ukraynaya ordu göndərmək təkliflərindən yayınırlar. Lakin dünyada sülhə və təhlükəsizliyə ən böyük təhdidi mərkəzlərindən olan Fransa hakimiyyəti fərqli düşünürlər.

Fransa prezidenti Emmanuel Makron Zeleniskini və ordusunu ruhlandırmaq üçün Ukraynaya orta və uzun mənzilli raketlər və bombalarla yanaşı, Qərb qoşunlarının da Rusiya ilə müharibəyə göndəriləcəyini bəyan edib: "Biz Rusiyanın bu müharibədə qalib gələ bilməməsi üçün lazım olan hər şeyi edəcəyik". Makron The Economist jurnalına müsahibəsində Avropa İttifaqının gələcəyini təhlükə altında qoya biləcək "misilsiz təhlükələr" barədə xəbərdarlıq edib. Makron onu da qeyd edib ki, Avropa İttifaqı ölkələri nüvə silahına malik olan və Ukraynada müharibəyə başlayan bir ölkə ilə eyni qitədə yaşamalarına baxmayaraq müdafiəyə hələ də ABŞ və ya Çindən əhəmiyyətli dərəcədə az vəsait xərcləyirlər.

Bu arada diqqətçəkən məqam ondan ibarətdir ki, istər Rusiya, istərsə də Ukrayna canlı qüvvə və hərbi texnika baxımından müəyyən problemlər yaşayırlar. Rusiya tərəfi miqrantları və xaricdən pul qarşılığında gələn könüllülər vasitəsi ilə canlı qüvvə baxımından üzləşdiyi problemləri qismən aradan qaldırmağa çalışır, lakin "nayomnik"lər bir müddət qaldıqdan sonra müxtəlif yollarla döyüş zonasından qaçırlar. Bu da Rusiya ordusu üçün ciddi çətinliklər yaradır.

Ukraynada vəziyyətin daha ağır olduğu müşahidə edilir. Çünki müharibənin ilk mərhələsində Rusiya irəlilədiyi üçün əhali kütləvi şəkildə yaşayış yerlərini tərk edib, xarici ölkələrə üz tutublar. Eyni zamanda, Ukrayna prezidenti V. Zelenski 2024-cü ilin may ayında imzaladığı fərmanla məcburi hərbi xidmət üçün yaş həddi 27-dən 25-ə endirilib. Bu isə orduya cəlb edilən əsgər sayının azalmasına təsir edir. 2025-ci ilin iyun ayı ərzində Ukrayna orduya 200 minə qədər döyüşçü toplamalı idi, lakin nəzərdə tutulan planı yerinə yetirmək mümkün olmayıb. Bu isə döyüş zonasında yeni bölmələrin yaradılmasına ciddi əngəllər yaradır. V.Zelenski çıxış yolu olaraq xarici könüllülərin komandir vəzifələrinə təyin edilməsi barədə əmr imzalamaqla böhranlı vəziyyəti aradan qaldırmağa çalışır. Hazırda Ukraynada əcnəbilərdən ibarət cəmi iki legion var. Legionlardan biri Ukrayna Silahlı Qüvvələrinin Quru Qoşunlarının yurisdiksiyasında, digəri isə Hərbi Kəşfiyyat İdarəsinin tabeliyindədir. Zelenskinin imzaladığı yeni əmrə əsasən xarici könüllü döyüşçülər komandir vəzifələrinə təyin oluna biləcəklər. Bu isə yeni idarəetmənin tətbiqi, cəbhədə döyüşən ordu arasında əhval-ruhiyyənin artırılmasına xidmət edəcək. Zelenskinin belə bir addım atmasında mühüm amil Qərbin texnologiya və silah dəstəyinə baxmayaraq, Rusiya ilə müharibənin davam etdiyi cəbhələrdə komandir çatışmazlığıdır. Başda Amerika Birləşmiş Ştatları (ABŞ), Fransa və Böyük Britaniya olmaqla, Qərb ölkələri hərbi qulluqçu yetişdirməkdə mühüm addımlar atsalar da, komandir çatışmazlığı diqqət çəkir.

## Müharibə zonasında nələr yaşanır?

Hazırda Ukrayna Rusiya üzərində müəyyən üstünlüklərə malikdir. Bu üstünlüklər əsasən Ukraynanın ərazilərinin müəyyən hissəsini azad etməsi, orduda döyüşən əsgər və zabitlərinin əhaval-ruhiyyəsinin yüksək olması və uğursuzluqla nəticələnən İstanbul danışıqlarından sonra ABŞ-ın, və Avropanın əksər ölkələrinin Ukraynaya hərbi yardımlarının sayının artırılmasına qərar verməridir. Artıq Almaniya kansleri F.Mertz MIM-104 Patriot hava hücumundan müdafiə sistemlərini Ukraynaya göndərəcəklərini bəyan edib. Qeyd edib ki, silahın tədarükü ən qısa müddətdə reallaşacaq. Almaniyanın müdafiə naziri Boris Pistorius Berlinin əlavə beş Patriot sistemini Ukraynaya təhvil verəcəklərini açıqlayıb. Nazir həmçinin qeyd edib ki, Almaniya Ukraynanı zenit raketləri ilə təmin edəcək və Ukraynada uzaqmənzilli pilotsuz təyyarələrin istehsalını maliyyələşdirəcək. Almaniyanın müdafiə naziri Boris Pistorius həmçinin İsveçrəyə Patriot tədarükünün gecikdirilməsi və əvvəllər İsveçrə Hərbi Hava Qüvvələri üçün nəzərdə tutulmuş sistemlərin Ukraynaya köçürülənləri əvəz etmək üçün 2027-28-ci illərdən başlayaraq çatdırılmalarla Almaniya Silahlı Qüvvələrinə yönləndiriləcəyi ilə bağlı uzun müddətdir mövcud olan fərziyyələri təsdiqləyib. İsveçrə hökumətinin artıq bununla razılaşdığı bildirilir. 2025-ci ilin iyul ayının ikinci həftəsində Bundesverin general-mayoru Kristian Freydinq Berlinin Ukrayna üçün iki Patriot sistemi üçün böyük müdafiə müqaviləsi bağlamağa hazırlaşdığını bildirib.

Bütün bunlar onu deməyə əsas verir ki, Rusiya-Ukrayna müharibəsi bir dövlətin çökməsi, digər ölkənin qalib gəlməsi qarşılığında başa çata bilər. Lakin Rusiya özünü məğlubedilməz dövlət hesab edir. ABŞ və Avropa ölkələri də aciz və zəif tərəf olmadıqlarını nümayiş etdirirlər. Bu isə yaxın illər üçün qalib tərəfin olacağını qeyd etmək çətindir. Deməli, müharibə hələ uzun illər davam edəcək. Müharibə davam etdikcə insanlar daha çox öləcək, yaralanacaq, şəhərlər, kənd və qəsəbələr daha çox dağılacaq. Dünyanı idarə etdiklərini iddia edən dövlət başçılarının bu məsələni anlamamaları təəccüb və dəhşət yaradır.

***İLHAM ƏLİYEV***

# Ağır və təhlükəli işlər: zəhmətin əvəzi necə ödənilir?

***Ağır və təhlükəli işlər işçilərin sağlamlığı və təhlükəsizliyi baxımından riskli və təhlükəli işlərdir. Qadınların və uşaqların bəzi ağır və təhlükəli işlərdə işləməsinə icazə verilmir. Bu cür işlərdə çalışanlar üçün gündəlik və ya həftəlik iş saatları qısaldılır, xüsusi imtiyazları və erkən pensiyaya çıxma imkanları var. Qanunvericiliyə əsasən, belə işlərdə çalışan işçilər vaxtaşırı tibbi müayinədən keçməlidirlər.***

Ölkəmizdə əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışanların sayı 2022-ci il üzrə 14 276 nəfər olub. Onların 8071-i sənaye, 640-ı tikinti, 5272-si nəqliyyat və anbar təsərrüfatı, 293-ü isə informasiya və rabitə sektorunda çalışanlardır.

Ötən il üçün əməyin təhlükəsizliyi tələblərinə uyğun olmayan avadanlıqlarda işləyənlər isə 1209 nəfər təşkil edib. Onların 1131-i sənaye, 68-i isə informasiya və nəqliyyat sektorunda çalışanlardır. Həmçinin, iş yerində sanitar-gigiyena normalarına cavab verməyən şəraitdə işləyənlər 24 400 nəfər olub. Onların 15879-u sənaye, 4188-i tikinti, 4031-i nəqliyyat və anbar təsərrüfatı, 302-i isə informasiya və rabitə sektorunda çalışıb.













## Qanun ağır işə görə əlavə zəhmətHaqqı barədə nə deyir?

Azərbaycan qanunvericiliyində əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində işçilərin əməkhaqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımlar müəyyən edilir. Əməkhaqqına belə artımların məbləğinin minimum miqdarı Nazirlər Kabinetinin "Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əməkhaqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" Qərarı ilə təsdiq edilib.

Bundan başqa, Əmək Məcəlləsinin 91-ci, 92-ci və 93-cü maddələri ilə müəyyən edilmiş qısaldılmış iş vaxtı şəraitində çalışan işçilərin əməkhaqları normal iş vaxtı üçün müəyyən edilən tam məbləğlərdə ödənilir. Bunlara əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli iş yerləri, işçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və həmçinin, insanın sağlamlığı üçün zərərli olan digər ağır şərtləri mövcud olan əmək şəraitli istehsalatlar, peşə və vəzifələr, yüksək həssaslıq, həyəcan, zehni, fiziki və əsəb gərginliyi, habelə insanın səhhətinə mənfi təsir göstərən digər amillər olan əmək şəraitli iş yerləri aiddir.

Ağır işlər kateqoriyasına aid olan işlər həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən yüksək həssaslıq, həyəcan, zehni, fiziki və əsəb gərginliyi, habelə insanın səhhətinə mənfi təsir göstərən digər amillər olan əmək şəraitli iş yerləridir.

## Artımlar nə qədərdir?

Azərbaycanda əmək şəraitinin ağır və zərərliliyinin müəyyən edilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "İş yerlərinin attestasiyasının nəticələrinə əsasən əmək şəraitinin ağır və zərərliyinin qiymətləndirilməsi metodikası" əsasında keçirilir. Əmək şəraitinin faktiki vəziyyətinin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"ndakı Əmək şəraiti üzrə iş yerinin attestasiya xəritəsi əsasında doldurulmuş "2İş yerində əmək şəraitinin qiymətləndirilməsi cədvəl"i əsasında müəyyən olunur

Ölkəmizdə əmək şəraiti ağır və zərərli olan işlərdə çalışan işçilərin vəzifə maaşlarına əmək şəraitinin ağır və zərərlik səviyyəsindən asılı olaraq artımın minimum miqdarı, əmək şəraiti ağır və zərərli işlərdə əmək şəraitinin ağır və zərərliliyinin aşağı səviyyəsində - 1,04, orta səviyyəsində - 1,08, yuxarı səviyyəsində - 1,12 təyin edilib. Əmək şəraiti xüsusilə ağır və xüsusilə zərərli işlərdə əmək şəraitinin ağır və zərərliliyinin aşağı səviyyəsində - 1,16, orta səviyyəsində - 1,20, yuxarı səviyyəsində - 1,24 nisbətində artım edilir. Vəzifə maaşına artım əmsalı konkret iş yeri üzrə təyin olunur və işçinin bu iş yerində yalnız faktiki iş növbəsi olduğu müddət üçün tətbiq edilir.

## Susuz ərazilərdə işləyənlər maaşı artımla alır

Azərbaycan Respublikasının susuz torpaq ərazilərində daimi içməli su mənbəyindən 20 km-dən 40 km-dək uzaqda yerləşən müəssisə, idarə, təşkilatlarda və ya iş yerlərində çalışan işçilərin əmək haqqına artımın minimum miqdarı 1,2, 40 km və ondan çox olduqda isə artımın minimum miqdarı 1,4 məbləğində müəyyən edilib. Susuz torpaq ərazilərində olan işlərdə çalışanların əmək haqqına artım əmsalları işəgötürən tərəfindən vəzifə maaşına, vaxtamuzd və işəmuzd əmək haqqına, qanunvericiliklə vəzifə maaşına müəyyən edilmiş əlavələrə və mükafatlara tətbiq edilir.

## Xəzər dənizində işləyənlər də maaşına əlavə alır

Xəzər dənizində yerləşən obyektlərdə çalışan işçilərin vəzifə maaşlarına sahillə əlaqə şəraitindən asılı olaraq artımın minimum miqdarı sahillə quru yol əlaqəsi olduqda - 1,4, quru yol əlaqəsi olmadıqda və sahildən aşağıdakı uzaqlıqda yerləşdikdə isə 0,5 km-ə qədər - 1,5, 0,5 km-dən 70 km-ə qədər - 1,65, 70- km-dən artıq - 1,75 qədər müəyyən edilib.

## Dəniz səviyyəsindən hündürlükdə yerləşən iş yerlərində çalışanlar

Azərbaycan Respublikasında dəniz səviyyəsindən hündürlükdə yerləşən müəssisə, idarə, təşkilatlarda və ya iş yerlərində çalışan işçilərin əmək haqqında hündürlük 1200 metrdən 1500 metrədək olduqda, artımın minimum miqdarı 1,1, 1500 metrdən 2000 metrədək olduqda, artımın minimum miqdarı 1,2, 2000 metrdən yuxarı olduqda isə artımın minimum miqdarı 1,3 məbləğində müəyyən edilib.

Əməkhaqqına artım əmsalları işəgötürən tərəfindən vəzifə maaşına, vaxtamuzd və işəmuzd əməkhaqqına, qanunvericiliklə vəzifə maaşına müəyyən edilmiş əlavələrə və mükafatlara tətbiq edilir.

## Ağır işlərdə işləyənlərin vergi öhdəlikləri də güzəştlidir

Ağır, zərərli, təhlükəli istehsalatlarda işçilərin tibbi müayinədən keçirilməsi üçün işəgötürənin hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilmiş xərc məbləğləri, əmək şəraiti zərərli, ağır olan, yeraltı işlərdə çalışan işçilərə verilən pulsuz müalicə-profilaktik yeməklər, süd və ona bərabər tutulan digər məhsulların dəyəri, həmçinin işçilərə müəyyən edilmiş müddətlərdə, tələb olunan çeşidlərdə verilən xüsusi geyim, xüsusi ayaqqabı eyni zamanda, digər fərdi mühafizə vasitələrinin dəyəri gəlir vergisindən azaddır.

***Lalə Mehralı***

# Dəniz zarafatı sevmir




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*










**Hər il dəniz mövsümündə təhlükəsizlik tədbirlərinə əməl etməyən, qadağan olunmuş ərazilərdə və nəzarətsiz çimən insanların ölüm hadisələri ilə rastlaşırıq. Bu il də istisna olmadı, yay mövsümü başlayandan dəniz xeyli can aldı. Tək nənizdə deyil, çaylar və kanallarda da boğulma xəbərləri tez-tez medianın gündəminə düşdü.**

Ən sarsıdıcı boğulma xəbəri iyulun 4-də Şəmkir rayonunda baş verdi. Qədimqala kəndinin sakinləri olan, 2016-cı il təvəllüdlü Nadirli Fərdi Teymurxan oğlu, 2018-ci il təvəllüdlü Nadirli Rəvan Teymurxan oğlu və əmisi oğlu, 2021-ci il təvəllüdlü Nadirli İsmayıl Nəriman oğlu birlikdə suni göldə can verdilər. 8,6 və 4 yaşlı uşaqlar nəzarətsiz çimdikləri göldən cansız çıxarıldılar. İyulun 16-da Ağdaşda, Yuxarı Şirvan kanalında 17 yaşlı idmançı - 2008-ci il təvəllüdlü Süleymanlı Dəniz Nəsib oğlu boğuldu. İyulun 17-də Qazax rayonunun Kəmərli kəndində ata və övladı kənddə göldə çimən zaman suda batıblar. Ata boğulub, övladı isə xilas olunub.

İyulun 17-də "Zirə" futbol klubunun 16 yaşadək futbolçulardan ibarət komandasının üzvü Fərid Şahverdiyev də dənizdə can verdi. Yeniyetmə futbolçu evlərinin yaxınlığındakı Şüvəlan çimərliyinə 2 dostu ilə gedib, hər üçün boğulma təhlükəsi ilə üzləşiblər, dostları xilas edilsə də, Fəridi xilas etmək mümkün olmayıb. 20 iyulda isə Buzovna qəsəbəsində vətəndaşın çimərkən batma təhlükəsi ilə üzləşib, 2004-cü il təvəllüdlü Məmmədov Heydər Şaiq oğlu dalğıc-xilasedicilər tərəfindən xilas edilərək təhlükəsiz əraziyə çıxarılıb.

20 iyulda Abşeron rayonunun Novxanı kəndində iki yeniyetmə dənizdə boğuldu. Gecə saat 04:00 radələrində dənizə girən iki yeniyetmə yoxa çıxıb. Axtarış tədbirləri nəticəsində hər iki yeniyetmənin meyiti yaxınlıqda yerləşən "Gilavar" restoranının yaxınlığından tapılıb.20 iyulda Sumqayıt şəhərində də faciəvi hadisə baş verdi. Hacı Zeynalabdin Tağıyev qəsəbəsi yaxınlığında yerləşən çimərlikdə 1971-ci il təvəllüdlü, Sumqayıt sakini Muxatov Asif Mülkədar oğlu boğulub.

22 iyulda Mərdəkan qəsəbəsində dənizdə nəzarətsiz ərazidə 1 nəfər batıb, FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasediciləri tərəfindən 2007-ci il təvəllüdlü İsmayılov Məhəmməd Oruc oğlunun meyiti suda tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. İyulun 21-də Fövqəladə Hallar Nazirliyinin (FHN) açıqladığı məlumatda bildirilirdi ki, yalnız 1 həftə ərzində - 14-20 iyul tarixləri aralığında dənizdə batma təhlükəsi olan 16 nəfər xilas edilib.



FHN bu vəziyyətlə əlaqdar teztez əhaliyə müraciət ünvanlanır. Nazirlik qadağan olunmuş ərazilərdə çimməməyi, çimmə zonazının işarələnmiş sərhədlərini keçməməyi, küçəkli havada dənizə girməməyi, çimərlikdə gecələməməyi, sərxoş halda dənizə girməməyi, suda kobud zarafatlar etməməyi, çimərlikdə balıq tutmamağı, dənizə xilasedici qayıqların hərəkətinə mane olacaq avadanlıqlarla və qayıqlarla çimərliyə gəlməməyi məsləhət görür.

Çimərlikdə xüsusilə uşaqlar nəzarətsiz qalmamalıdır, xəbərdarlıq nişanlarına və xilasedicilərin tələblərinə əməl edilməlidir. Hava qaraldıqdan sonra suya girmək həyatınız üçün təhlükəlidir. Heç vaxt təkbaşına suya girməyin. Yanınızda kiminsə olması həyat qurtara bilər. Əgər yaxşı üzə bilmirsinizsə sahildən uzaqlaşmayın. Hətta yaxşı üzə bilən insanlar da açıq dənizdə təhlükə altındadır. Əgər dənizdə axın sizi sahildən uzaqlaşdırarsa, axına qarşı üzməyə çalışmayın, bu sizi yora və batıra bilər. Belə vəziyyətdə çalışın axına paralel üzün, sonra sahilə doğru dönün.

Əgər yorğunsunuzsa, yuxulu, xəstə və zəifsinizsə dənizə girməyin. Alkoqol insan beyninin koordinasiyasını pozduğu üçün sərxoş ikən təhlükə anında çevik davranmaq olmur, ona görə dənizə gedərkən spirtli içki içməyin. Uşaqlara və üzə bilməyənlərə təhlükəsizlik jileti və ya halqası istifadə etmək məsləhət görülür. Həddindən artıq tox və hədsiz acsınızsa dəniz təhlükəli ola bilər, çünki bədən risklərə adekvat davrana bilmir.

Boğulma hallarının çoxu 3 dəqiqədən az vaxtda, çox vaxt səssiz baş verir. Siz nə olduğunu anlamadan dənizin dibinə gedə bilərsiniz. Ona görə də əgər peşəkar üzgüçü deyilsinizsə, ayaqlarınızı yerdən üzəcək dərinliyədək getməyə çalışmayın. Unutmayın, dəniz zarafatı sevmir.

***Lalə Mehralı***

SƏS
25 iyul
2025-ci il

# Çimərliyə hansı qidaları aparmaq olmaz?

*Mütəxəssis mühüm məqamları açıqladı*





"Müasir qida təhlükəsizliyi prinsiplərinə əsasən, hər hansı qida məhsulunun keyfiyyətli və təhlükəsiz şəkildə istehlakçıya çatdırılması üçün istehsaldan istehlaka qədər "soyuq zəncir"in qorunması əsas şərtdir. Bu, məhsulun temperatur rejiminin zədələnmədən saxlanması və mikrobioloji çirklənməyə yol verilməməsi baxımından vacibdir. Əgər qidanın saxlanma və daşınma prosesində bu temperatur sabitliyi pozularsa, məhsulun xarab olması, mikroorqanizmlərlə çirklənməsi və nəticə etibarilə insan sağlamlığı üçün təhlükəli hala gəlməsi mümkündür". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Eyyub Hüseynov sözlərinə belə davam edib: "Soyuducularda və sərin şəraitdə saxlanıla bilən bəzi məhsulların daşınması qısamüddətli olduqda müvəqqəti çəmirli (termos və ya izolyasiyalı qablarda) şəraitdə mümkündür. Lakin bəzi yüksək riskli qida kateqoriyaları - məsələn, mayonez tərkibli məhsullar, göbələk, balıq, konservlər və digər tez xarab olan məhsullar - mütləq şəkildə sabit temperaturda, yəni soyudulmuş şəraitdə daşınmalıdır. Əgər bu məhsullar günəş şüaları altında və ya isti şəraitdə saxlanılarsa, qida zəhərlənməsi riski son dərəcə artır.

Eyni zamanda yay mövsümündə təzə kənd təsərrüfatı məhsullarının, xüsusilə də qarpuzun istehlakı ilə bağlı da ehtiyatlı olmaq tövsiyə olunur. Qarpızlar düzgün aqrotexniki qaydalara uyğun becərilmədikdə, xüsusilə də yüksək dozalarda azot gübrəsi və ya nitratlarla yetişdirildikdə, meyvənin tərkibində zərərli maddələr toplanır. Belə məhsulların həddindən artıq miqdarda qəbulu insan orqanizmində nitrat zəhərlənməsinə səbəb ola bilər.

Nəticə etibarilə, rəsmi nəzarətdən keçmiş, düzgün saxlanma və daşınma şəraiti təmin olunmuş qidalar sağlamlıq üçün təhlükəli deyil. Əksinə, soyuducu zəncirə əməl olunmayan, qeyri-rəsmi və nəzarətsiz şəkildə istehlakçıya çatdırılan məhsullar yay aylarında xüsusilə zəhərlənmə riski daşıyır. Buna görə də həm fərdi səviyyədə, həm də ümumi ictimai səhiyyə baxımından bu məsələlərə diqqətli yanaşmaq zəruridir".

***Ayşən Vəli***

## ELAN

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən Cəfərova Günay Şaiq qızına verilmiş DMX №1876 nömrəli xidməti vəsiqə etibarsız sayılsın.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressalnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Yaşı 75-i ötən fransızlar istidən ölür...




Fransada kəskin istilər ucbatından ölüm halları çoxalıb. Təkcə 19 iyun - 6 iyul tarixlərində Fransada əvvəlki dövrlərlə müqayisədə 480 əlavə ölüm faktı qeydə alınıb. Bu da kəskin istilər dövrünə təsadüf edir. Bu barədə statistikanı Fransanın İctimai Səhiyyə Agentliyi yayıb. Agentlik hesab edir ki, bu artım anomal istilər səbəbindən baş verib. Zərərçəkənlərin demək olar hamısı yaşı 75-i ötmüş şəxslərdir. Daha dəqiq statistika avqustda elan olunacaq.

# Çin və ABŞ üz-üzə - bu dəfə saxta Labubuya görə...



Çinin "Pop Mart" şirkəti ABŞ-nin "7-Eleven" mağazalar şəbəkəsini saxta Labubu oyuncaqları satdığına görə məhkəməyə verib. Bu barədə Şanxayın "Jiemian" nəşri yazır. İddiaya səbəb amerikalı bir qızın sosial şəbəkədə yerləşdirdiyi videoda "7-Eleven" mağazasında 25 dollara satılan saxta əşyaların nümayişi olub. Orijinal "Pop Mart" oyuncaqlarının qiyməti demək olar ki, eynidir, lakin "7-Eleven"də oyuncaqlar və qablaşdırma çox aşağı keyfiyyətə malikdir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**